**AZƏRBAYCAN RESRUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI**
**ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**VİLAYƏT İBRAHİM OĞLU İSMAYILOV**

# AQRAR BÖLMƏDƏ MƏHSUL İSTEHSALI VƏ SATIŞININ TƏŞKİLATİ – İQTİSADİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**5312.01 – Sahə iqtisadiyyatı**

İqtisad üzrə elmlər doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin

**AVTOREFERATI**

**Bakı – 2017**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** iqtisad elmləri doktoru, professor
**Ramiz Kamal oğlu İsgəndərov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**
iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**
iqtisad elmləri doktoru, professor
**Rövşən Rasim oğlu Quliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

Müdafiə « 22 » İyun 2017 - ci il saat 14:00 - da Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında aşağıdakı ünvanda olacaqdır:

**Ünvan:** Bakı şəhəri N.Nərimanov rayonu, Az.29, 8-ci Köndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat « 19 » May 2017 - ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya**
**Şurasının elmi katibi,**
**iqtisad üzrə fəlsəfə doktoru:** **V.R. Rzayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Mülkiyyət və təsərrüfat formalarından asılı olaraq aqrar münasibətlər daim yeniləşir və təkmilləşir. Aqrar bölmə digər sahələrdən fərqli olaraq, torpaq, təbii - iqlim şəraiti və istehsal fondlarına bağlı olan özünəməxsus xüsusiyyətlərə malikdir. Digər bir cəhəti də qeyd etmək lazımdır ki, aqrar bölmədə məhsul istehsalı və satışı mexanizmi başqa fəaliyyət sahələrindən əsaslı surətdə fərqlidir. Bu sahə sənaye istehsalının xammala, əhalinin ərzaq məhsullarına olan tələbatının mühüm hissəsini təmin edir. Belə ki, respublikada istehsal edilən ümumi daxili məhsulun (ÜDM) strukturunda kənd təsərrüfatı istehsalının xüsusi çəkisi 2010-cu ildə 5,5% , 2011-ci ildə- 5,1%, 2012-ci ildə - 5,1%, 2013-cü ildə - 5,4%, 2014–cü ildə - 5,3%, 2015-ci ildə- 6,2%, 2016-cı ildə - 5,6% təşkil etmişdir. Göstərilən cəhətlər bir daha aqrar bölmənin ölkə iqtisadiyyatında müvafiq xüsusi çəkiyə malik olduğunu əks etdirir.

Aqrar sferada yaradılan və fəaliyyət göstərən müxtəlif təsərrüfat formalarının inkişafı, ilk növbədə, həmin ölkədə sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin təşkil edilməsindən asılıdır. Bu baxımdan, 15 dekabr 1992-ci ildə “Sahibkarlıq fəaliyyəti haqqında” Qanunun qəbul edilməsi, Azərbaycan Respublikası Prezidentinin 28 avqust 2002-ci ildə “Sahibkarlığa Kömək Milli Fondu” və 10 sentyabr 2002-ci ildə “'Sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər” haqqında, 6 dekabr 2016-cı ildə “Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə Strateji Yol Xəritəsi” Fərmanları böyük əhəmiyyət kəsb edir.

Mövzunun aktuallığını şərtləndirən istiqamətlərdən biri də ölkədə aqroturizm fəaliyyətinin inkişaf etdirilməsidir. Respublikamızda dövlətin həyata keçirdiyi aqroturizm siyasəti kənd təsərrüfatı məhsullarının istehsalı və satışında sahibkarlıq fəaliyyətinin üstünlüklərindən və imkanlarından istifadə olunmasına şərait yaradır.

Bazar münasibətlərinin bərqərar olması inzibati - amirlik sistemi ilə müqayisədə sosial-iqtisadi problemlərin hərtərəfli öyrənilməsinə sistemli yanaşmanın vacibliyini tələb edir. Aqrar sahədə istehsalın həcminin yüksəldilməsini təmin etmədən cəmiyyətin davamlı inkişafına nail olmaq mümkün olmadığı kimi, qarşıya çıxan ciddi sosial-

iqtisadi problemlərində həllinə nail olmaq mümkün deyildir. Bu baxımdan mövcud şəraitdə aqrar sektorda yeni yaradılan iqtisadi fəaliyyət strukturlarının idarəetmə funksiyaları və mexanizmləri geniş formada araşdırılmalıdır.

Hər bir dövlətin iqtisadi və sosial siyasətinin əsas istiqamətlərindən biri aqrar sektorda ölkə əhalisinin məşğulluğunun təmin olunması, işsizliyin aradan qaldırılması və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin düzgün təşkil edilməsidir. Dissertasiyanın aktuallığını səciyyələndirən digər mühüm məsələlərdən biri də ondan ibarətdir ki, tədqiqat prosesində aqrar sektorda məhsul istehsalı və satışının təşkilati-iqtisadi məsələlərinin elmi-nəzəri cəhətdən təhlili aparılmışdır.

Bununla yanaşı, işdə yeni iqtisadi sistem şəraitində iqtisadi inkişaf modelinə aqrar bazar iqtisadiyyatı modelinin tələb və prinsiplərinin uyğunlaşdırılması haqqında mühakimə irəli sürülür. Bu baxımdan, respublikada aqrar sahədə həyata keçirilən bütün fəaliyyət proqramı məhsul istehsalı və satışının təmin olunması istiqamətinə yönəldilməlidir. Eyni zamanda, aqrar sferada yeni təsərrüfatçılıq metodlarının yaradılmasında dövlətin optimal tənzimlənmə və stimullaşdırma mexanizmlərinin tətbiqinə üstünlük verilməlidir. Bu baxımdan, kənd təsərrüfatında məhsul istehsalı və satışının səmərəli strukturunun müəyyən olunması xüsusi əhəmiyyət kəsb edir.

İşdə, digər tədqiqatlardan fərqli olaraq, kənd təsərrüfat məhsullarının istehsal və satışının səmərəli strukturunun modelləşdirilməsində istehsalçının qərar qəbul etmə, risk funksiyaları arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsi, aqroturizmin inkişafının proqnozlaşdırılmasının reqressiya modelinin qurulması və digər problemlərin həlli məsələlərinə yeni formada baxılmışdır. Bununla yanaşı, məhsul itkisini əks etdirən itki funksiyasının və əkin üçün optimal sahənin seçilməsinin risk funksiyası ilə Bayes riskinin asılılığı müəyyənləşdirilmişdir. O cümlədən, qraflar nəzəriyyəsinin tətbiqi ilə qapalı dövrənin qurulmasını tələb edən məhdudiyyət şərtləri əsasında ən kiçik xərclərlə məhsulun daşınmasında optimal məsafənin hesablanması və məhsulun istehsal həcminin proqnozlaşdırılmasının çoxamilli reqressiya modellərinin qurulması mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunanlar tədqiqat işinin aktuallığını göstərir.

**Problemin öyrənilmə vəziyyəti.** Aqrar sahədə məhsul istehsalı və satışının inkişaf istiqamətləri, yaranmış sosial-iqtisadi problemlərin həlli yolları, elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqinin müxtəlif üsulları və problemin digər aspektləri ölkəmizin bir sıra iqtisadçı alimlərindən A. F. Musayev, S. V. Salahov, Ə. Q. Əlirzayev, İ.H.Alıyev, Ş.Ə.Səmədzadə, İ.Ş.Qarayev, R.K.İsgəndərov, R.M.Cəbiyev,Q.C. İmanov, M.C.Hüseynov, Y.R.Abdullayev, A.F.Abbasov, Ə.Ç.Verdiyev, İ.H.İbrahimov, A.Q.Qəhrəmanov, Ş.Ə.Axundov, Ə.H.Əliyev, F.Ə.Məmmədov, xarici ölkə alimlərindən V.A.Bespalov, E.P.Bryanskix, F. Kotler, V. P. Xulusov, Y.A.Çıpkin, N. K. Mojeyeva, E. S. Varqa, M. S. Xodoş, A.M.Dubrov, E.E.Sluçkiy, M.V.Pineqina, O.O.Zamkov, O.Ore, V.İ.Mudrov, B.B.Dıbskaya və başqalarının tədqiqatlarında əsas yerlərdən birini tutmuşdur.

Adları çəkilən iqtisadçı alimlər irəli sürülən problemin ayrı - ayrı aspektlərini tədqiq etmiş və müəyyən fundamental elmi - nəzəri nəticələr əldə etmişlər. Lakin yeni təsərrüfatçılıq formalarının yaranması aqrar sferadakı mövcud problemlərin həllinin yeni aspektlərinin işlənməsinə və irəli sürülən ideya və elmi yeniliklərin dövrün tələbləri ilə uyğunlaşdırılmasına ciddi tələbat yaradır.

Məhsul istehsalı və satışının təhlili ilə bağlı bəzi yanaşmalar yanlış mühakimələrə (məsələn, məhsul istehsalı və satışında kənd təsərrüfatı birjaları, yarmarkalar, aqroservis və aqropark tipli müəssisələrin təşkili, aqromarketinq xidmətləri və s. haqqında) əsaslanır. Bütövlükdə, aqrar bazar tələb və təklif qanunlarının prinsiplərinə uyğun olaraq müxtəlif əmtəə və xidmətlərin reallaşmasını stimullaşdıran xüsusi növ bazar kimi formalaşır. Bu bazarda tənzimləyicilər kimi, təkcə mikro və makro iqtisadi amillər deyil, həm də kənd təsərrüfatı məhsulunun qiyməti, gəlirlər və əmək haqqı ilə əlaqəli olmayan digər sosial-psixoloji amillər də iştirak edir.

Məhsul istehsalı və satışı prosesinin optimal strukturunun müasir tipli modellərinə münasibətdə müxtəlif fərdi baxışlar mövcuddur. Aqrar sferada məhsul istehsalı və satışında birjalar, yarmarkalar, topdansatış ərzaq bazarları, aqroservis və aqropark tipli müəssisələrin yaradılması və aqromarketinq xidmətindən səmərəli istifadə, aqroturizmin inkişafının reqressiya modelinin tətbiqi və s. bir sıra istehsal xarakterli iqtisadi

məsələlərin həllində, istehsal və istehlakın nisbətinin tarazlaşdırılmasının iqtisadi-riyazi qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Son illərin tədqiqatları göstərir ki, sosial-iqtisadi proqnozlaşdırma məsələlərinə yönəlmiş mürəkkəb sistemlərin dinamikasının modelləşdirilməsinə ənənəvi metodların tətbiqi çox vaxt gözlənilən səmərəni vermir, eyni zamanda xeyli xətalar və risklərlə müşahidə olunur. Bu, ilk növbədə, riyazi aparatın ədədi metodlarının yüksək dəqiqliyinin yuxarıda qeyd etdiyimiz sistemlərin inkişaf proseslərinin xeyli mürəkkəbliyi ilə ziddiyət təşkil etməsi və tədqiqat obyektinin bir sıra əsas xüsusiyyətlərinin nəzərə alınmasında riyazi təhlilin kifayət etməməsi ilə izah olunur. Mövcud şəraitdə istehsal xarakterli iqtisadi məsələlərin həllinə yeni yanaşmaya, yeni nəzəriyyə, metod və texnologiyalara ciddi ehtiyac yaranmış və bu ehtiyaca cavab olaraq istehsal sahələrində planlaşdırmanın optimal variantının seçilməsinin tam və şərti ehtimallar prinsipi, iqtisadiyyatda xətti proqramlaşdırma metod və modellərinin geniş istifadə edilən üsulları və s. tətbiqi istiqamətlərinin verilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan qeyd olunan tədqiqatların aparılmasına və aqrar sektorun iqtisadi məsələlərinin həllinə, müxtəlif formada yanaşmaların tədqiqi həm nəzəri baxımından, həm də irəli sürülən məsələlərin aktuallığı baxımından zərurət kəsb edir.

Bununla yanaşı, mövzunun mürəkkəbliyinə və əhatə dairəsinə baxmayaraq, qeyd olunanlar hələ də lazımi səviyyədə araşdırılmamışdır. Bu baxımdan elmi - nəzəri müddəalar və problemə dair irəli sürülən məsələlər bir daha mövzunun aktuallığını, onun məqsəd və vəzifələrini müəyyən edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan məqsəd kənd təsərrüfatı məhsullarının istehsalı və satışında təşkilati-iqtisadi mexanizmlərin təkmilləşdirilməsinin metodoloji əsaslarını, məhsul istehsalı və satışının mövcud vəziyyətinin araşdırılması əsasında istehsal həcminin yüksəldilməsi yollarını müəyyənləşdirməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- kənd təsərrüfatı məhsullarının istehsal və satış prosesinin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinin nəzəri-metodoloji aspektləri və mövcud vəziyyətinin müqayisəli təhlilinin aparılması;
- bitkiçilik və heyvandarlıq məhsullarının istehsal həcminə təsir edən amillər sisteminin qruplaşdırılması, istehsal həcminin artırılması ehtiyat mənbələrinin müəyyənləşdirilməsi metodikasının verilməsi;
- aqrar məhsulların satışı və reklam məqsədi ilə ixtisaslaşdırılmış kənd təsərrüfatı birjalarının təşkilat-maliyyə şəraitlərinin araşdırılması;
- aqromarketinq prosesinə texnologiya kimi baxılaraq onun ardıcıl mərhələlərlə aparılması metodikasının verilməsi;
- məhsulun daşınmasında funksional-dəyər təhlili nəticəsində əməliyyatların əhəmiyyət və nisbiliyinin, funksiyalar kompleksinin xərc əmsallarının və proqnozlaşdırılan səmərənin təyin edilməsinin riyazi asılılığının verilməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalı və satışında sahibkarlıq fəaliyyətinin üstünlüklərindən və imkanlarından istifadə edilməsinin məqsədəuyğunluğu;
- aqroturizmin inkişafının proqnozlaşdırılması modelinin verilməsi və ondan istifadə imkanlarının müəyyənləşdirilməsi;
- kənd təsərrüfatı məhsullarının bölüşdürmə və satış məntəqələri arasında daşınmasına qraflar nəzəriyyəsinin tətbiqi ilə şəbəkə şəklində verilməsi və ən kiçik xərclərlə optimal məsafənin seçilməsi;
- qiymət və gəlirin dəyişməsini ifadə edən istehlakçıların məhsul seçimi kombinasiyasının modelini tətbiq etməklə tələbat funksiyasının (y) qiymət (p) və gəlirdən (z) asılılığını əks etdirən elastiklik əmsallarının qiymətinin hesablanması;
- məhsulun istehsal həcminin proqnozlaşdırılması üçün çoxamilli reqressiya modelinin qurulması, istehsal həcminin proqnozlaşdırılan və statistik qiymətlərinin müqayisəsi;
- aqrar sektorda istehsal və satışın təkmilləşdirilməsinin iqtisadi metodlarının dünya təcrübəsi nəzərə alınmaqla təhlili.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini aqrar bölmədə fəaliyyət göstərən müxtəlif təsərrüfat formaları, yük daşımalar üzrə struktur bölmələr təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini kənd təsərrüfatı məhsullarının istehsalı və satışının bazarla qarşılıqlı əlaqələri, istehsal və satışın təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını respublikanın və xarici ölkələrin görkəmli iqtisadçı alimlərinin aqrar bölmədə məhsul istehsalı və satışının təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı nəzəri fikir və mülahizələri, Azərbaycan Respublikasının Konstitusiyası, Milli Məclisin qanunları, Əmək Məcəlləsi, Nazirlər Kabinetinin qərarları, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafının Dövlət Proqramı" və s. təşkil edir.

Dissertasiyanın hazırlanmasında məntiqi ümumiləşdirmə, müqayisəli və sistemli təhlil, analitik – statistik tədqiqat üsullarından, kütləvi xidmət və qraflar nəzəriyyələrindən, informasiya təminatı, qərar qəbul etmə və icra etmə şərtləri daxilində alqoritmlərin və modellərin qurulması sistemlərindən, digər müxtəlif hesablama və proqnozlaşdırma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işinin yerinə yetirilməsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məcmuələri, illik bülletenləri, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi və Kənd Təsərrüfatı Nazirliklərinin statistik və hesabat materialları, Nazirlər Kabinetinin qərarlarından istifadə edilmişdir. Tədqiqat işində çoxsaylı internet saytlarından və inforamisya bazasından da geniş şəkildə istifadə olunmuşdur.

**Dissertasiya işinin elmi yenilikləri.** Dissertasiya işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- bitkiçilik və heyvandarlıq məhsullarının istehsal həcminə təsir edən amillər qruplaşdırılmış, istehsalın artırılmasının ehtiyat mənbələrinin aşkar olunma metodikası verilmişdir;
- aqrar bazar sistemində birjaların, yarmarkaların, topdansatış ərzaq bazarlarının,

aqroservis, aqropark tipli infrastrukturun yaradılması əsaslandırılmışdır;

- aqromarketinq prosesi texnologiyasının ardıcıl mərhələlərlə icra metodikası işlənmişdir;

- kənd təsərrüfatı məhsullarının istehsalı və satışında sahibkarlıq fəaliyyətinin üstünlüklərindən və imkanlarından istifadə edilməklə aqroturizmin inkişafının proqnozlaşdırılması modeli verilmiş, modelin aqroturizm sahibkarlığının inkişaf etdirilməsində, bir sıra dövlət proqramlarının hazırlanmasında istifadəsinin vacibliyi əsaslandırılmışdır;

- yükdaşıma əməliyyatının optimal texnoloji sxemi işlənib hazırlanmış, xidmət funksiyalarının nisbilik və əhəmiyyətlilik səviyyəsi hesablanmış, funksiyalar kompleksinin istehsalat xərcləri müəyyənləşdirilmiş, proqnozlaşdırılan səmərənin hesablanmasının riyazi formulası verilmişdir;

- iqlim şəraitinə müvafiq risk funksiyası ilə bayes riski arasındakı asılılıq aşkar olunmuş, texnoloji proseslərin aparılma müddəti əsaslandırılmışdır;

- kənd təsərrüfatı məhsulunun bölüşdürmə və satış məntəqələri arasında paylanmasına şəbəkə şəklində verilmiş nəqliyyat məsələsi kimi baxılmış, qraflar nəzəriyyəsinin tətbiqi ilə məhdudiyyət şərtləri əsasında qapalı dövrə qurularaq nəqliyyat vasitəsinin ən kiçik xərclərlə optimal yolunu müəyyən edən model qurulmuşdur;

- qiymət və gəlirdən asılı olaraq istehlakçıların məhsul seçimi kombinasiyasının modeli işlənilmiş, bu modelin tətbiqi ilə tələbat funksiyasının gəlir və qiymətdən asılılığının elastiklik əmsalları müəyyən edilmişdir;

- məhsulun istehsal həcminin proqnozlaşdırılması üçün çoxamilli reqressiya modeli təklif olunmuşdur.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işinin nəticə və təkliflərindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin bütün struktur sahələrinin fəaliyyətinin təşkili və səmərəli idarə edilməsində, respublika əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi və bu sahədə dövlət proqramlarının tərtib edilməsi məsələlərinin həllində istifadə edilə bilər. Dissertasiya işində irəli sürülmüş nəzəri – metodoloji xarakterli tövsiyələrdən, praktiki əhəmiyyətli təkliflərdən kənd

təsərrüfatında məhsul istehsalı və satışı strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi prosesində və aqromarketinq xidmətlərinin təşkilində, ayrı – ayrı regionların ərzaq təminatının yaxşılaşdırılmasında əsaslandırılmış istiqamətlərin seçilməsi prosesində istifadə oluna bilər. Tədqiqat işində irəli sürülmüş təkliflərin həyata keçirilməsi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin daha da artmasına, ölkə əhalisinin həyat səviyyəsinin yüksəlməsinə zəmin yaradacaqdır.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işinin əsas müddəaları və nəticələri "Müasir mərhələdə aqrar-sənaye istehsalının intensivləşdirilməsi" mövzusunda gənc alimlərin və mütəxəssislərin IV Respublika konfransında (Bakı, 1988-ci il); "Müasir mərhələdə aqrar sənaye istehsalının intensivləşdirilməsi" mövzusunda Beynəlxalq konfransda (Bakı, 1989-cu il); "Rusiya və regionlar: inkişafın yeni paradiqması" mövzusunda Ümumrusiya elmi-praktiki konfransda (Çelyabinsk, 2002-ci il); "Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər" mövzusunda Beynəlxalq elmi- praktiki konfransda (Bakı, 2003-cü il); "Rusiya və regionlar: siyasi və iqtisadi inkişafın sosial oriyentləri" mövzusunda XX Beynəlxalq elmi-praktiki konfransda (Çelyabinsk, 2003-cü il); Bakı Dövlət Universitetində keçirilmiş elmi-praktiki konfransda (Bakı, 2004-cü il); Azərbaycan Kooperasiya Universitetinin 40 illiyinə həsr olunmuş «Bazar şəraitində kooperasiyanın inkişafının sosial-iqtisadi problemləri» mövzusunda Beynəlxalq elmi-praktik konfransda (Bakı, 2004-cü il), Bakı Dövlət Universitetində "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi problemləri" mövzusunda elmi-praktik konfransda (Bakı, 2005-ci il), "Mümkünlüyə dair ümumdünya layihəsi"nin ilk Beynəlxalq Konqresində (Tehran, 2009-cu il), Azərbaycan Kooperasiya Universitetində "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüsəldilməsi" mövzusunda Beynəlxalq elmi-praktik konfransda (Bakı, 2012-ci il), Gürcüstan Beynəlxalq Qafqaz Universitetinin təşkil etdiyi Beynəlxalq konfransda (Tbilisi, 2015-ci il) məruzə edilmişdir.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Nəticələr Azərbaycan Respublika Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bəyənilmiş, onun bir sıra elmi-nəzəri və praktiki əhəmiyyətə malik olan maddə və tövsiyələrindən istifadə olunması məqsədəuyğun

sayılmış və müvafiq arayış verilmişdir (№ 05/18-08-1267, 21 oktyabr 2009-cu il). Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin «Avtonəqliyyatservis» Departamenti dissertasiya işində yükdaşıması üzrə araşdırılmış məsələlərdən istifadənin məqsədəuyğunluğunu göstərməklə müvafiq arayış vermişdir (№ 287/1,10.11.2008-ci il).

Dissertasiya işinin əsas nəticələri 36,2 çap vərəqi həcmi olan "Məhsul istehsalı və satışının optimal strukturunun iqtisadi – riyazi modelləşdirilməsi", "Kənd təsərrüfatı məhsullarının istehsal və satışında birjalar və aqromarketinqin rolu", "Kənd təsərrüfatı məhsullarının istehsal və satışının iqtisadi - riyazi modelləşdirilməsi" adlı 3 monoqrafiya, həcmi 45,2 çap vərəqindən ibarət olan 55 jurnal məqaləsi, 1 dərslik və müxtəlif Beynəlxalq və regional elmi - praktiki konfrans materiallarında çap edilmiş tezislərdə öz əksini tapmışdır.

**İşin strukturu və həcmi.** Dissertasiya işi girişdən, beş fəsildən, nəticə və təklifdən, istifadə edilmiş ədəbiyyat siyahısından, qısaldılmış sözlərin açılışı, əlavələr və nəticələrin tətbiqi haqqında arayışlardan ibarət olub 320 səhifə təşkil edir. İşdə 50 cədvəl və 36 şəkil verilmişdir.

## Tədqiqat işinin qısa məzmunu

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallğı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və s. göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatı məhsullarının istehsalı və satışının təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinin metodoloji əsasları"** adlanır. Burada kənd təsərrüfatı məhsulları istehsalı və satışının spesifik xüsusiyyətləri göstərilmiş, kənd təsərrüfatında yeni mülkiyyət münasibətlərinin formalaşması şəraitində istehsalın inkişafının sürətlənməsi, iqtisadi səmərənin əldə olunması, istehlakçıların tələbatlarının ödənilməsi və nəticədə onların sosial-iqtisadi vəziyyətlərinin yüksəldilməsi məsələləri araşdırılmışdır. Bu

fəsildə qeyd olunur ki, yeni yaradılan təsərrüfatların normal fəaliyyətinə istiqamətləndirilmiş digər şərtlər və amillərlə bərabər, onların iqtisadi mexaniminin düzgün qurulmasının böyük təsiri vardır. Təsərrüfatın iqtisadi mexanizmi onun maliyyə - kredit, bank, vergi, qiymətqoyma məsələlərinin, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı, qablaşdırılması, daşınması, saxlanması, emalı, satışı, texniki–təchizat və xidmət strukturlarının – kənd təsərrüfatı birjaları, yarmarkaları, aqromarketinq prosesi texnologiyasının ardıcıl mərhələdən ibarət təşkili, əməyin və istehsalın stimullaşdırılması, idarə edilməsi, işçilərin seçilməsi və ixtisaslarının yüksəldilməsi və s. kompleks məsələlərin düzgün həllindən asılıdır. Burada göstərilir ki, təsərrüfatların səmərəli fəaliyyətinə təsir edən amillərdən önəmlisi onların maliyyə təminatıdır. Belə ki, təsərrüfatların maliyyələşdirilməsinin başlıca mənbəyi istehsal edilmiş məhsulun satışından əldə olunan gəlir, dövlətin verdiyi kreditlər, habelə əvəzsiz olaraq verilən sair vəsaitlərdir.

Müəllif tədqiqatçi alimlərin fikirlərini ümumiləşdirmiş və məhsul istehsal edən müəssisənin kommersiya nəticələrinin istehsal və satış xərclərinin cəminə olan nisbətindən şərtlənən istehsal sisteminin maksimum səmərəliliyini təmin edən riyazi asılılıq vermişdir:

$$S_s = \frac{x_{komm}}{\sum_{i=1}^{n} x_i} \rightarrow max \qquad (1)$$

burada: $\sum_{i=1}^{n} X_i$ - i növ məhsul istehsalına çəkilən xərclərin cəmini, i=1,2,3,…n;

$x_{komm}$ – kommersiya nəticələrini ifadə edir.

Tədqiqat işində qeyd edilir ki, istehlakçıların tələbatlarının ödənilməsi üçün istehsal edilən kənd təsərrüfatı məhsullarının satış prosesinin potensial alıcılarının müəyyənləşdirilməsi, onların alıcılıq imkanlarının qiymətləndirilməsi, sifarişçilərin potensial imkanları, alıcılıq stili və s. haqqında məlumatın toplanması, münasibətlərin formalaşmasının əlverişli üsullarının seçilməsi xüsusilə əhəmiyyətlidir. İşdə göstərilir ki, məhsulun satışından maksimum gəlir əldə etmək üçün onun müvafiq satış birjalarında, yarmarkalarda, topdansatış ərzaq bazarlarında, eyni zamanda xüsusi

sərgilərdə nümayiş etdirilməsi aktuallığı ilə seçilir. Beynəlxalq sahibkarlıq yolu ilə aqroturizmin imkanlarından və üstünlüklərindən, bəzi xidmətlərdən istifadə etməklə sazişlərin bağlanması, onunla əlaqəli işlərin sona çatdırılması və nəticələrinin yoxlanılması kimi elementlərin ardıcıllıqla yerinə yetirilməsi müəssisəyə maksimum səmərə əldə etmək üçün imkan verir.

Bu fəsildə aqrar bölmədə məhsul istehsalı və satışı üzrə problemlərin tədqiqi ilə məşğul olmuş alimlərin fikirləri ümumiləşdirilərək qeyd edilir ki, aqrar məhsula olan tələbin dəyişməsi bilavasitə iki növ: a) qiymətlə əlaqəli; b) qiymətlə əlaqəli olmayan amillərdən formalaşır.

Tələbatların sosial-iqtisadi təhlilini və dövlətin iqtisadi siyasətini müəyyənləşdirmək üçün dissertasiya işində rasional tələbat sferası elmi cəhətdən təhlil edilərək göstərilir ki, ərzaq məhsulları fizioloji tələbatlarla birbaşa əlaqəli olduğundan rasional tələbat normasını təyin etmək nisbətən asandır. İnsanların ərzaq məhsullarına olan tələbatları onların demoqrafik tərkibi, milli xüsusiyyətləri, əməyin gərginlik dərəcəsi, yaşadığı mühit nəzərə alınmaqla təmin edilməlidir. Ümumdünya Səhiyyə Təşkilatının və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına əsaslanaraq müəllif qeyd edir ki, ağır fiziki əməklə məşğul olan adamlara orta hesabla gündə 4,0 – 4,5 min kilokalori (kkal), zehni əməklə məşğul olan adamlara isə 3,0 min kkal-yə malik olan ərzaq məhsulları tələb olunur. Ərzaq məhsullarının istehlak normalarını müəyyən etmək üçün ayrı-ayrı məhsulların malik olduğu kalorinin miqdarını bilmək lazımdır. Əmək fəaliyyətli, yəni işləyən hər bir adam gün ərzində orta hesabla 2,8 – 3,7 min kkal-yə bərabər olan ərzaq məhsulları qəbul etməlidir. MDB ölkələri üzrə bu ğöstərici orta hesabla 2,78 min kkal təşkil edir ki, bunlarda ən yüksək göstərici Qazaxıstanda 3095 kkal və aşağı göstərici Türkmənistanda 2395 kkal, Ermənistanda 2185 kkal təşkil edir ki, bu da orta hesabat göstəricisindən 1,5-1,7 dəfə azdır. Eyni zamanda işdə qeyd edilir ki, gün ərzində tələb edilən kalorinin 11%-i zülalların, 24,5 %-i yağların, 64,5 %-i karbohidrogenlərin payına düşür.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinin 2014-cü ildə bəzi məhsullar üzrə azalmasının əsas səbəbi iqlim şəraitinin əlverişli olmaması, yüksək

məhsuldarlığa malik olan toxum sortları ilə təsərrüfatların tam təmin edilməməsi, maliyyə çətinliyindən ehtiyac duyulan maşın – mexanizmləri əldə edə bilməməsi, mineral gübrənin qiymətinin yüksək olması və s. kimi amillərlə izah oluna bilər. Eyni zamanda, qeyd etmək lazımdır ki, dövlət tərəfindən son illərdə aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər, o cümlədən 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi, Azərbaycan Respublikasının regionlarının sosial – iqtisadi inkişafı ilə bağlı dövlət proqramları, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin icrası kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılmasına istiqamətləndirilmiş əsas tədbirlərdəndir. Dissertasiyada qeyd olunur ki, respublika iqtisadiyyatının aqrar bölməsində ayrı-ayrı bölgələrin xüsusiyyətləri, təbii-iqtisadi şəraiti, müəssisələrin ixtisaslaşma səviyyəsi və s. nəzərə alınaraq həmin sahələrin istehsal istiqamətləri, əsas parametrləri əsaslandırılmalıdır. Bu prinsiplərə düzgün əməl etdikdə sahibkar son nəticənin səmərəliliyini təmin etmək üçün istehsal potensialından hərtərəfli istifadə etməyə maraqlı olur və iqtisadi vəsaitlərdən maksimum istifadə edir. Odur ki, azad sahibkar məhsul istehsalı və satışı ilə həm özünün lazımı tələbatını, həm də əhalinin tələbatını ödəməyə meyilli olur və istehlakçı tapmaqla onun tələbatına uyğun məhsul istehsal edir. Bu məqsədlə aqrar bölmədə təsərrüfatların fəaliyyətinin iqtisadi səmərəliliyini yüksəltmək üçün bitkiçilik və heyvandarlıq məhsulları istehsalının artırılmasına ciddi fikir verilməlidir.

Burada aqrar bölmənin xidmət sahələri içərisində aqroturizmin böyük əhəmiyyət kəsb etdiyi vurğulanır. Qeyd edilir ki, ölkəmizdə bu sahənin inkişaf etdirilməsi kəndli fermerlərin kənd evlərində turistlərin yerləşdirməsinə görə əlavə gəlir əldə etməsinə, istehsal edilən kənd təsərrüfatı məhsullarının reklamına, onun satışının təşkilində xarici sifarişçilərin iştirakını təmin edən əlverişli şərait formalaşır. Bu baxımdan, son illərdə respublikamızda aqroturizmin inkişafına kömək məqsədilə müxtəlif məqsədli kreditlərin ayrılması və onların təyinatı ilə istifadə edilməsinin vacibliyi tədqiqat işində qeyd edilir.

Bu fəsildə məhsul istehsalı və satışında təşkilati - iqtisadi mexanizmlərin tətbiqinin nəzəri əsasları təhlil edilməklə müxtəlif alimlərin tədqiqatlarının nəticələri və dünya

təcrübəsi nəzərə alınaraq göstərilir ki, dövlət kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsini qanunvericilik, inzibati və iqtisadi, o cümlədən maliyyə – büdcə mexanizmləri vasitəsi ilə həyata keçirə bilər. Odur ki, kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsi zamanı istehlakçıların mənafeyinin qorunması ilə yanaşı, təkrar istehsalın stimullaşdırılması da gözlənilməlidir.

Aqrar sektorda dövlət tənzimlənməsinin iqtisadi metodlarına kənd təsərrüfatı məhsullarının istehsalı və satışı sferasında onun birbaşa iştirakı, aqrar bazarın tələb – təklif balansına təsir etməsi, antiinhisar qanunvericiliyi, əhali gəlirlərinin tənzimlənməsi, bazar konyukturunun tənzimlənməsi və s. aiddir. İşdə qeyd edlir ki, bazar münasibətləri şəraitində kənd təsərrüfatı məhsullarının satışının optimal səviyyəsinin müəyyən olunmasında onun iqtisadi amillərinin düzgün müəyyənləşdirilməsi mühüm praktiki əhəmiyyət kəsb edir. Həmin iqtisadi amillər hər bir ölkənin istehsal və bazar şəraitindən, istehlakçı mövqelərindən və əhalinin alıcılq qabiliyyətindən asılı olaraq bir-birindən fərqlənir. Azərbaycanda bazar iqtisadiyyatının doğurduğu çətinliklər və problemlər, xüsusilə regional münaqişələr, kənd təsərrüfatı məhsullarının satış imkanlarına bilavasitə təsir edir. Bu proses isə aqrar sferada yeni iqtisadi münasibətlərin hansı formada səmərəli olmasından, dövlətin tənzimləmə mexanizmindən çox asılıdır. Göstərilən cəhətlər nəzərə alınaraq, kənd təsərrüfatı məhsullarının satışının ənənəvi və müasir xarakterli iqtisadi amilləri müəyyənləşdirilmişdir.

Aqrar sektorun iqtisadi mexanizmlər vasitəsilə tənzimlənməsi aqrar sahənin yüksək monopolizasiyalı sahələrdən qorunmasını, bazar iqtisadiyyatı şəraitinin şərtlərinə əsasən dövlətin sifarişçi və investor funksiyalarının saxlanılmasını və təkmilləşdirilməsini, bazar infrastrukturunun inkişafına təsirini, kəndin sosial sferasının, eləcə də aqrar elmin inkişaf etdirilməsi və kənd təsərrüfatı üçün yüksək ixtisaslı kadrların hazırlanmasını tə-min etməlidir.

Dissertasiyada kənd təsərrüfatı müəssisələrinin məhsul istehsalı həcmindən asılı olaraq xərclər, satışdan əldə edilən gəlir və mənfəət funksiyalarını əks etdirən əyrilər arasındakı mütənasiblikdən görünür ki, istehsal həcmi az olduqda müəssisənin xərcləri çox olur və ilk əvvəl bu xərclər gəlirə nisbətən kəskin artır, istehsal həcmi artdıqda isə

ona çəkilən xərcər də gəlirə nisbətən azalır. Məhsulun istehsal həcminin artması nəticəsində xərclər sürətlə artır və müəyyən anda onların nisbi bərabərliyi yaranır, həmin andan etibarən kənd təsərrüfatı müəssisəsi gəlir əldə etməyə başlayır.

İşdə qeyd olunur ki, kənd təsərrüfatı məhsulları istehsalının artırılması təsərrüfatların maddi-texniki resurslarla təchiz edilməsindən çox asılıdır. Belə ki, kənd təsərrüfatı maşın və avadanlıqlarının satış qiyməti çox yüksək olduğundan, təsərrüfatlar maliyyə imkanlarının məhdudluğu səbəbindən onları əldə edə bilmir. Bu məqsədlə dövlət təsərrüfatlarda olan mövcud texnikanın əsaslı təmir edilərək istfadə olunmasına yardım göstərməlidir. Bu tədbirlərin həyata keçirilməsi, şübhəsiz ki, müəssisələrin maddi-texniki resurslarla təchiz olunmasına, onlardan səmərəli istifadəyə, məhsul istehsalının sürətli inkişafına şərait yaradar və nəticədə kənd təsərrüfatı müəssisələrinin inkişafına təsir göstərər.

Tədqiqat işində qeyd edilir ki, iqtisadi-riyazi modellər haqqında olan fikirləri ümumiləşdirərək aqrar bölmədə məhsul istehsalı və satışının optimallaşdırılmasının iqtisadi-riyazi modelinin qurulması üçün aşağıdakı alqoritmdən istifadə olunur:

1. Tədqiqatın predmeti və məqsədi formalaşdırılır.
2. İqtisadi sistemdə tədqiqata müvafiq gələn elementlər, həmçinin, onların ən əsas xüsusiyyətləri seçilərək müəyyənləşdirilir.
3. Modelin elementləri arasında qarşılıqlı əlaqə və məhdudiyyət şərtləri yazılır.
4. Obyektin xüsusiyyətini nəzərə alan şərti işarələr daxil edilir və onların qarşılıqlı əlaqəsi müəyyənləşdirilməklə riyazi model formalaşdırılır.
5. Modelin məlumatlarına əsasən hesabat aparılır və alınmış nəticə təhlil edilir.

Dissertasiya işinin ikinci fəsli «**Respublikada kənd təsərrüfatı məhsullarının istehsalı və satışının müasir vəziyyəti və inkişaf meyilləri**» adlanır. Bu fəsildə kənd təsərrüfatı məhsullarının istehsalı və satışının mövcud vəziyyəti araşdırılaraq təhlil olunmuşdur. Məlumdur ki, aqrar bölmə iqtisadiyyatın mühüm sahələrindən biri olmaqla həm ölkə əhalisi üçün ərzaq məhsulları, emal sənayesi üçün xammal istehsal edir, həm də cəmiyyətin digər ehtiyaclarını ödəyir.

Aqrar sektorda aparılan islahatlar nəticəsində sahibkarlıq və müxtəlif növlü

təsərrüfatçılıq formalarının inkişaf etdirilməsi əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi üçün şərait yaranmışdır. Bu isə aqrar bazarın səmərəli təşkilindən və rasional formada inkişaf etdirilməsindən çox asılıdır. 2000-2015-ci illərdə respublikada kənd təsərrüfatı müəssisələrinin mülkiyyət növləri üzrə inkişaf dinamikasından görünür ki, kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarlıq müəssisələri müqayisə edilən dövrdə müvafiq olaraq 1,99 və 2,0 dəfə azalmış, xidmət təşkilatları isə 2,1 dəfə artmışdır. Təhlildən göründüyü kimi, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən bütün növ təsərrüfat formaları arasında rəqabət genişlənmişdir. Rəqabət şəraitində müəssisələr mövqelərini möhkəmləndirmək məqsədi ilə bazara daha çox məhsul çıxartmağa, istehsal etdikləri məhsulun keyfiyyəti ilə alıcıların tələbatını təmin etməyə və məhsulun maksimum qiymətə satılaraq müvafiq gəlir əldə etməyə çalışırlar.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni yaranmış təsərrüfat formalarının istehsal etdiyi məhsul müasir bazarın tələblərinə cavab vermədikdə qazanc əldə edilmir, nəticədə, müəssisə öz fəaliyyətini dayandırmalı olur.

Dissertasiyada qeyd olunur ki, kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi 2000-ci ilə nisbətən 2014-cü ildə 625 min hektar və ya 1,55 dəfə artmışdır. Bu artım xüsusilə yem bitkilərində 2,9 dəfə, meyvə və giləmeyvədə 1,67 dəfə, dənli və dənli –paxlalı bitkilərdə 1,54 dəfə artmış, azalma isə çayda 81,5% və texniki bitkilərdə 37,1% təşkil etmişdir. Odur ki, son illərdə dövlət tərəfindən aparılan məqsədyönlü tədbirlər bilavasitə bu növ bitkilərin əkin sahələrinin genişləndirilməsinə və onların məhsuldarlığının yüksəldilməsinə istiqamətləndirilmişdir. Müqayisə edilən dövrlərdə kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artımı ən çox çay, üzüm və pambıqda müşahidə olunmuşdur ki, bu artım da müvafiq olaraq 5,05; 2,30; 1,97 dəfə təşkil etmişdir. Həmin dövrdə bitkiçilik məhsullarının məhsuldarlığında azalma tempi müşahidə edilməmişdir. 2005-2014-cü illərdə hər baş inək və camışdan süd sağımı göstəricisi 1,26 dəfə artaraq 1381 kq, hər qoyundan orta illik yun qırxımı 1,11 dəfə artaraq 2,1 kq, toyuqların orta illik yumurta verimi 1,22 dəfə artaraq 247 ədəd təşkil etmişdir ki, buna da təsərrüfatların düzgün yem rasionu ilə heyvanları yemləndirməsi, onlara vaxtında

zoobaytar xidmətlərin göstərilməsi, heyvanların saxlanılma şəraitinin yaxşılaşdırılması, balavermə göstəriciləri yüksək olan və məhsuldar heyvan cinslərinin ölkəyə gətirilərək təsərrüfatlara bölüşdürülməsi və s. amillər təsir göstərir.

Qeyd etmək lazımdır ki, 2014-cü ildə heyvandarlığın inkişafı və məhsuldarlığın artırılmasına dövlət tərəfindən 25 mln. manat vəsaitin ayrılması, son 5 ildə respublikaya 11645 baş damazlıq heyvan alınaraq təsərrüfatlara bölüşdürülməsi və Milli Fəaliyyət Planı çərçivəsində 5 ildə 220 min hektar ərazinin yaxşılaşdırılaraq heyvandarlıq üçün istifadəyə verilməsinin nəzərdə tutulması bu sahəyə dövlət dəstəyinin yüksəldilməsinin bariz nümunəsidir.

İşdə respublikanın mövcud iqtisadi durumunda investisiyaların kənd təsərrüfatı sahələrinin inkişafına yönəldilməsinin səmərəliliyi vurğulanır. Göstərilir ki, aqrar bölməyə ayrılan investisiyaların kompleks məsələlərin həllinə yönəldilməsi daha çox səmərəli hesab olunur. Qeyd etmək lazımdır ki, investisiyalar məhsul istehsalının artırılması ilə yanaşı, aqrar sektorun sahə quruluşunun inkişafına, texnologiyaların təkmilləşdirilməsinə, elmi-texniki nəticələrin tətbiqinə, həmçinin, əlverişli təsərrüfat formalarının inkişaf etdirilməsi üçün şəraitin yaradılmasına istiqamətləndirilməlidir.

Dissertasiyada məhsul istehsalının mövcud vəziyyətinə iqtisadi, sosial, təbii-iqlim, demoqrafik amillərin təsiri açıqlanır və göstərilir ki, bu amillərlə yanaşı, məhsulun istehsal həcminə məhsuldarlığın təsiri nəzərə alınmış, bitkiçilik və heyvandarlıqda məhsuldarlığın yüksəldilməsinə təsir göstərən amillər qrupu müəyyənləşdirilmişdir.

Tədqiqat işində Respublika üzrə ÜDM-in cəminin adambaşına düşən hissəsinin 2000-2014-cü illərdə dəyişmə xarakterinin eksponensial qanunauyğunluğa tabe olduğu və onun səlis dinamika ilə yüksəlməsi göstərilir.

Son illərdə respublikada adambaşına düşən qida məhsullarının istehlakında daxili istehsalın xüsusi çəkisi artmışdır. Eyni zamanda, qidalanmanın məhsuldarlığının itirilməsi və birbaşa səhiyyə xərcləri baxımından dünya iqtisadiyyatına vurduğu zərər qlobal gəlirin 5 faizi həcmində ölçülür ki, bu da illik 3,5 trilyon ABŞ dolları və ya adambaşına 500 ABŞ dolları ekvivalentinə bərabərdir. Azərbaycan əhalisi Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi gündəlik və ya illik qida normasından xeyli aşağı

miqdarda ərzaq məhsulları istehlak edir, xüsusilə də yüksək kalorili məhsulların istehlakı müəyyən olunmuş normadan xeyli aşağıdır. Məsələn, ət və ət məhsulları istehlakının adambaşına illik norması 84 kq, olduğu halda, ölkə əhalisi 33 kq, ət istehlak edir, süd və süd məhsullarının istehlak norması adambaşına 360 kq, olduğu halda, ölkə əhalisi 248 kq, balıq və balıq məhsulları üzrə istehlakının adambaşına illik norması 20 kq, olduğu halda, ölkə əhalisi 6,8 kq, yumurta istehlakının adambaşına illik norması 280 ədəd olduğu halda, ölkə əhalisi 131 ədəd istehlak edir.

Kənd təsərrüfatı məhsullarının satış qiymətinin artımı bilavasitə onun istehsal həcmi ilə də əlaqəlidir. Belə ki, ölkəyə gətirilən məhsulların idxalının azaldılması daxili mənbələr hesabına istehsalın həcmini artırır və bu məqsədlə sahibkarlara verilən subsidiyaların artırılması mühüm əhəmiyyət kəsb edən göstəricidir. Qeyd etmək lazımdır ki, son illərdə qiymət artımı ən çox meyvə və giləmeyvədə, tərəvəzdə olmuşdur. Qiymət artımının mövsümi faktorunun və iş adamlarının süni qiymət artımının da bahalaşmaya təsiri danılmazdır.

Ümumilikdə, ölkə əhalisinin həyat səviyyəsi, adətən, bir-biri ilə qarşılıqlı əlaqəli iki göstərici: “tələbat səbəti” və “yaşayış minimumu” ilə yanaşı təhlil edilir. Bu baxımdan, ölkədə “Minimum istehlak səbətinin tərkibi” və “Yaşayış minimumu” haqqında 01 yanvar 2017-ci ildə qəbul edilmiş qərarlarda nəzərdə tutulan istehlak səbətinin tərkibinin müəyyənləşdirilməsi və əhalinin əsas sosial - demoqrafik qrupları üzrə yaşayış minimumunun ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən edilməsi əhalinin həyat səviyyəsi göstəricilərinin dövlət tərəfindən nəzarətdə saxlanıldığını bir daha əks etdirir.

Respublika iqtisadiyyatının müxtəlif sahələrində çalışan işçilərin orta aylıq nominal əmək haqqının təhlilindən görünür ki, 2014-cü ildə ən yüksək əmək haqqı mədənçıxarma sənayesində çalışan işçilərdə, maliyyə və sığorta fəaliyyəti sahəsində, ən aşağı əmək haqqı isə əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, istirahət, əyləncə və incəsənət

sahəsində olmuşdur. Hətta, iqtisadiyyat üzrə cəmi əmək haqqı göstəricisi 2013- cü ilə nisbətən 2014-cü ildə 19,4 manat və ya 4,6% artıq olmuşdur.

MDB dövlətləri üzrə əhalinin orta aylıq nominal əmək haqqı göstəricilərinin təhlilindən görünür ki, 2013- cü illə müqayisədə 2014 – cü ildə ən çox artım Belarusda - 1,20 dəfə, Tacikistanda - 1,17 olmuş, ən az isə Rusiya, Qazaxıstan, Moldova və Qırğızıstanda - 1,08-1,11 dəfə, Ukraynada - 1,06 dəfə, Azərbaycanda - 1,05 dəfə olmuş, bəzi ölkələrdə, o cümlədən Ermənistan və Türkmənistanda artım nəzərə çarpmamışdır. Ukraynada və Azərbaycanda artımın çox az səviyyədə olması regional münaqişələrlə, Ermənistan və Türkmənistanda atrımın olmaması isə ölkə iqtisadiyyatının inkişafının aşağı səviyyədə olması ilə əlqələndirilir.

İşdə ev təsərrüfatlarının pul gəlirinin cəmi və onun artım səviyyəsinin təhlilindən göründüyü kimi, kənd təsvərrüfatında çalışan ailələrdə sənayenin müxtəlif sahələrində çalışan ailələrə nisbətən həmin göstərici aşağı olmuşdur ki, bu da onların yaşayış səviyyəsinə öz təsirini göstərir. Ev təsərrüfatlarının pul gəlirlərinin dəyişmə dinamikasının araşdırılan dövrdə dəyişmə xarakteri düzxətli qanunauyğunluqla ifadə olunur. Bu zaman aproksimasiyanın reqressiya tənliyi $y = 18{,}94x + 17{,}96$ təşkil edir.

Tədqiqat işində bitkiçilik və heyvandarlıq məhsullarının istehsal həcminə amillərin birbaşa və dolayı təsir mexanizmi aydınlaşdırılaraq müxtəlif təsərrüfat formalarında kənd təsərrüfatı məhsullarının maya dəyəri və satış qiymətlərinin müqayisəli təhlili aparılmış, istehsal həcminin artırılmasının ehtiyat mənbələrinin araşdırılması metodikası verilmiş və tədqiqatçı belə bir nəticəyə gəlmişdir ki, respublikada kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, onu əhalinin tələbatı səviyyəsinə yüksəltmək üçün böyük ehtiyat mənbələri mövcuddur. Eyni zamanda, bu metodika göstərir ki, kənd təsərrüfatında məhsul istehsalının artırılması ehtiyatlarının müəyyənləşdirilməsi məqsədi ilə aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilməlidir: əkin sahələri genişləndirilməli, əkin sahəsinin strukturu yaxşılaşdırılmalı və bitkilərin məhsuldarlığının yüksəldilməsi ehtiyatları (məsələn, hektara verilən gübrənin artırılması, yeni və yüksək məhsuldarlıqlı sortlardan istifadə və s.) müəyyənləşdirilməlidir. Bundan əlavə, kənd təsərrüfatı məhsullarının istehsalı və

satışının düzgün təşkil edilməsi məqsədi ilə tədqiqat işində müəllif tərəfindən təklif edilmiş və hal – hazırda müvafiq bölgələrdə təşkil edilən müasir tipli aqroparkların istifadəyə verilməsi bilavasitə aqrar sfera məhsullarının istehsalının genişləndirilməsində həlledici rol oynaya bilər. Bu baxımdan, geniş profilli aqroparklarda istehsal, emal, satış və təkrar istehsalla əlaqəli bir sıra infrastrukturun təşkil edilməsi regionlarda yeni iş yerlərinin açılmasını təmin etməklə bərabər dövlətin regionların sosial- iqtisadi inkişafının həyata keçirilməsi üzrə planlaşdırılan silsilə tədbirlər sisteminin gerçəkləşdirilməsini ifadə edir.

Dissertasiya işinin üçüncü fəsli **"Kənd təsərrüfatı məhsullarının istehsal və satışının təşkilinin əsas infrastrukturunun formalaşması"** adlanır. Bu fəsildə kənd təsərrüfatı məhsullarının istehsalı və satışının təşkilində əsas infrastrukturların rolu, o cümlədən birjaların, yarmarkaların, topdansatış ərzaq bazarlarının rolu, aqromarketinq prosesi texnologiyası və ondan səmərəli istifadə, aqroturizmin artımnın yüksəldilməsinin proqnozlaşdırılması modeli, daşınma prosesinin funksional dəyər təhlili və s. elmi cəhətdən əsaslandırılaraq verilir və qeyd edilir ki, kənd təsərrüfatı birjaları müxtəlif xüsusiyyətli olmaqla istehsal edilən məhsulların satış və reklam xarakterli xidmətləri üzrə qruplaşdırılır.

Fəsildə göstərilir ki, məhsulun bazarda uzun müddət fəaliyyət göstərməsi o halda mümkündür ki, onun birjada azad və dayanıqlı ticarəti təmin olunsun. Bu baxımdan, birjaların strukturuna bir sıra amillərlə yanaşı, elmi - texniki tərəqqinin də təsirinin danılmazlığı göstərilməklə elmi–texniki tərəqqi, məhsulun keyfiyyətini müəyyən edən metodların təkmilləşdirilməsi məqsədi ilə yeni texniki vasitələrdən istifadə edilməsinə imkan yarandığı qeyd olunur.

Kənd təsərrüfat birjaları müxtəlif məhsulların ticarətini təşkil etməklə qiymətlərin meyl etməsi zamanı risklərin azaldılması, qiymətlərin müəyyənləşdirilməsi, səmərəliliyin yüksəldilməsi, məlumatlar axınının çoxalması kimi funksiyaları yerinə yetirməklə aşağıdakı təşkilati - maliyyə şərtlərini təmin etməlidir: əməliyyatların icrası üçün müvafiq avadanlıqlarla təchiz olunmuş ərazini, rabitə və məlumat vasitələrini, alqı–satqı müqavilələrinin qısa müddətdə və maneəsiz yerinə yetirilməsi üçün

əməliyyatların işlənilməsini, müqavilələrin maliyyə cəhətdən təmin olunması üçün səmərəli depozit sistemini, bazarın bütün iştirakçılarının müvafiq qanunlara və qaydalara riayət etməsini, düşünülmüş və səmərəli kənd təsərrüfatı müqavilələrinin bağlanmasını və s. Dissertasiyada kənd təsərrüfatı məhsullarının satışının təşkilati mexanizmində birjaların, yarmarkaların, topdansatış ərzaq bazarlarının rolu qeyd edilir.

Tədqiqat işində müasir şəraitdə satıcılarla alıcılar arasında iqtisadi əlaqələri formalaşdırmaq məqsədi ilə birjaların yaradılmasının vacibliyi qeyd edilərək göstərilir ki, Azərbaycanda ilk birja 1886-cı ildə yaranmış və birja təsisatlarının Birinci Dünya Müharibəsi, daha sonra hərbi kommunizm siyasəti ilə əlaqədar fəaliyyəti bir neçə il ərzində dayandırılsa da, 1922-1930-cu illərdə birjalar yenidən fəaliyyət göstərmişlər. Göründüyü kimi, birja təsisatlarının fəaliyyəti təxmini olaraq yarım əsirlik bir dövrün spesifik xüsusiyyətlərini özündə əks etdirir və bu illərin institusional təcrübəsi müəyyən əhəmiyyət kəsb edir. Çünki nəzərə alsaq ki, birjalar eyni zamanda vergi subyekti, birja gəlirləri isə vergi obyekti kimi çıxış edir, bu zaman birja təsisatlarına daha anlamlı rakurslardan baxmaq olar. Eyni zamanda, birjaların fəaliyyətinin tənzimlənməsi məqsədilə 1994–cü ildə Milli Məclis tərəfindən qəbul olunmuş “Birja fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun mövcud olması və respublikada fəaliyyət göstərən birjalardan–Xalq Birjasının, Aqrar Sənaye Birjasının, Xammal Əmtəə Birjasının, Respublika Əmtəə Birjasının zəif fəaliyyəti də qeyd edilir.

İşdə, aqrar sferanın fəaliyyətinin ən mühüm təşkilati infrastrukturundan biri olan Aqrar Sənaye Birjasının yaradılmasının vacibliyi göstərilir. Eyni zamanda, bu fəsildə kənd təsərrüfatı birjalarının yaradılmasının məhsulun satış qiymətinin tənzimlənməsinə, alıcı və satıcılar arasında müqavilələrin bağlanılmasına, dövlət tərəfindən müəyyən edilmiş kənd təsərrüfatı məhsullarının qiymətlərinin müəyyən hüdudda meyl etməsinə müsbət təsir göstərməsi vurğulanmaqla, aqrar bazarda topdansatış xidmətlərin göstərilməsində birjaların mühüm rolu qeyd olunur. İnkişaf etmiş dünya ölkələrinin təcrübəsinə əsaslanaraq müəllif işdə qeyd edir ki, kənd təsərrüfatı birjaları məhsul satışının tələb və təklifə müvafiq olaraq həyata keçirilməsinə əlverişli şərait yaradır və onları xarakterizə edən əsas şərtlərdən biri bağlanılmış müqavilələrdə bilavasitə

istehsalçı və istehlakçıların deyil, vasitəçilərin və məhsul nümunələrinin iştirak etməsidir ki, respublikada bu növ ticarətin təşkilinə də böyük ehtiyac duyulur.

Dünya bazarlarında kənd təsərrüfatı məhsullarının rəqabət mübarizəsində aqromarketinqdən aktiv istifadə olunduğu araşdırılan tədqiqat işində göstərilir ki, hazırda aqrar–sənaye sferasında fəaliyyət göstərən bütün iqtisadi subyektlərin elmi cəhətdən əsaslandırılmaqla həyata keçiriləcək marketinq konsepsiyasına ciddi ehtiyacı vardır. Odur ki, həmin subyektlərə vaxtında informasiya məsləhət xidmətlərinin göstərilməsi əsas problemlərdən biridir.

Xarici ölkələrin və respublikanın bu sahədə məşğul olan alimlərinin fikirlərini ümumiləşdirərək, aqromarketinq konsepsiyasının icra mexanizminin elementlərini sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar (Şəkil 1).




**Şəkil 1. Aqromarketinq konsepsiyasının həyata keçirilmə mexanizminin əsas elementləri**

Şəkildən göründüyü kimi, müəssisə aqromarketinq konsepsiyasından istifadə etməklə, işinin əsas istiqamətlərini bazarın alıcılıq qabiliyyətinə müvafiq olaraq müəyyənləşdirə bilir.

Aqromarketinq konsepsiyasını əhalinin yaşayış səviyyəsi, istehlakçıların tələbatlarının ödənilməsi, kənd təsərrüfatı müəssisələrinin gəliri kimi əsas amillər müəyyənləşdirir.

Aqromarketinq texnologiyası pillələr, əməliyyatlar, üsullar və digər fəaliyyət mexanizmlərinin köməyi ilə marketinq qərarlarını həyata keçirir. Praktiki olaraq

aqromarketinq fəaliyyəti üçün müəllif tərəfindən aqromarketinq texnologiyası işlənilmişdir ki, burada aqromarketinq prosesinin həyata keçirilməsi, eyni zamanda onun təşkilat–idarəetmə təminatı əks etdirilir. İşdə təklif edilən bu cür yanaşmanın, yəni aqromarketinq sisteminin və ya texnologiyasının yaradılması problemlərinin, onun təşkili və idarə edilməsinin nəzəri cəhətdən əsaslandırılması böyük əhəmiyyət kəsb edir və müəllifin fikrincə aqromarketinq prosesi texnologiyasının aşağıdakı altı ardıcıl mərhələdən ibarət həyata keşirilməsi məqsədəuyğundur: bazarın tədqiq edilməsi; proqnozlaşdırma, məqsədi müəyyənləşdirmə, planlaşdırma; aqromarketinq sisteminin təşkili; aqromarketinq prosesinin təşkili, nəzarət və rasionallaşma; aqromarketinq prosesinin koordinasiya edilməsi və nizamlanması; aqromarketinq fəaliyyətinin qiymətləndirilməsi və onun inkişaf perspektivlərinin müəyyənləşdirilməsi.

Təklif olunan bu texnologiya, aqromarketinq fəaliyyətinin praktiki həyata keçirilməsində funksional proseslər sisteminin bütövlüyünü yaratmaqla, bazar konyunkturasında aqromarketinq imkanlarının uyğunlaşmasına və qəbul olunmasına şərait yaradır.

Dissertasiyada belə bir nəticəyə gəlinir ki, aqromarketinq texnologiyasından səmərəli istifadə onun bütün aqrar-sənaye sahələrində, o cümlədən, fermer təsərrüfatlarında və Kənd Təsərrüfatı Nazirliyinin struktur bölmələrində kompleksli və sistemli şəkildə tətbiqi vasitəsi ilə təmin oluna bilər.

Tədqiqat işinin bu fəslində aqrar sektorun inkişaf etdirilməsində, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı və satışında əmtəə mübadiləsinin sahibkarlıq yolu ilə fəallaşmasına əlverişli mühiti formalaşdıran aqroturizm fəaliyyətinin təşkili və onun kompleks idarəetmə mexanizminin işlənilməsi məsələlərinə müəllif ilk dəfə olaraq baxaraq aqroturizmin inkişafının çoxamilli reqressiya modelini vermişdir. Qeyd etmək lazımdır ki, aqroturizmin inkişafı ölkənin iqtisadi artımının, investisiya qoyuluşu prioritetlərinin, ərazi və regionlarda bu sahənin inkişaf etdirilməsi məsələlərinin düzgün təşkili və həlli üçün əsas rol oynayır. Aqroturizmin inkişafının əsas modeli aqrar sektorda çalışanların sosial, demoqrafik həyat səviyyəsi göstəricisi və onun inkişafının düzgün təşkili ilə müəyyənləşir. Bu baxımdan, aqroturizmin inkişafına həm sosial

təminatı maddiləşdirən funksiya kimi, həm də bu sahə üçün gəlir gətirən mənbə kimi baxmaq vacibdir. Aqroturizmin inkişaf etdirilməsi bir tərəfdən turistlərin ölkəmizin müxtəlif təbii- iqlim şəraitinə malik olan regionları haqqında düzgün informasiyalarla məlumatlandırılmasında, digər tərəfdən isə işğal altında olan ərazilərimiz haqqında təbliğat işinin genişləndirilməsində mühüm bir vasitədir.

İşdə çoxamilli reqressiya modelinin tətbiqi ilə aqroturizmin inkişafının proqnozlaşdırılması üçün model qurulmuş, modelə təsir edən əsas amillər kimi orta hesabla əhalinin hər nəfərinə düşən mənzil sahəsi ($x_1$), qazla abadlaşdırılmış mənzil sahəsinin xüsusi çəkisi ($x_2$), kənd əhalisinin hər 100 nəfərinə düşən telefon aparatları ($x_3$) və hər 1 km şosse yollarına düşən avtomobillərin sayı ($x_4$) götürülmüş və bu göstəricilər cədvəl 1 – də verilmişdir.

**Cədvəl 1**

**Aqroturizmin inkişafının proqnozlaşdırılması**

| İllər | Aqroturizmin inkişafı, min nəfər | Orta hesabla əhalinin hər nəfərinə düşən mənzil sahəsi, $x_1$, $m^2$ | Qazla abadlaşdırılmış mənzil sahəsinin xüsusi çəkisi, $x_2$, faiz | Kənd əhalisinin hər 100 nəfərinə düşən telefon aparatları, $x_3$, ədəd | Hər 1 km şosse yollarına düşən avtomobillərin sayı, $x_4$ , ədəd |
|---|---|---|---|---|---|
| 2005 | 7,5 | 10,7 | 92,8 | 5 | 33 |
| 2006 | 8,7 | 11,0 | 92,5 | 5 | 36 |
| 2007 | 5,1 | 11,3 | 92,6 | 6 | 41 |
| 2008 | 7,8 | 11,5 | 87,4 | 6 | 46 |
| 2009 | 6,4 | 11,8 | 86,3 | 7 | 49 |
| 2010 | 12,5 | 11,8 | 86,1 | 7 | 52 |
| 2011 | 12,3 | 11,8 | 85,0 | 7 | 55 |
| 2012 | 13,2 | 11,9 | 85,9 | 7 | 60 |
| 2013 | 14 | 11,9 | 85,9 | 7 | 65 |
| 2014 | 14,8 | 12,0 | 92,1 | 7 | 68 |
| 2015 | 14,8 | 12,0 | 91,9 | 6 | 70 |
| 2016 (proqnoz) | 14,9 | - | - | - | - |

Bu halda m=4, N=10 olduğu üçün xətti reqressiya modeli aşağıdakı kimi yazılır:

$$y_i = a_0 + a_1 x_{i_1} + a_2 x_{i_2} + a_3 x_{i_3} + a_4 x_{i_4}, (i = \overline{1,10}) \quad (2)$$

(2) tənliyinin həlli üçün PASCAL dilində kompyuter proqramından istifadə edilmiş, ən kiçik kvadratlar metodunun tətbiqi ilə ($a_0$, $a_1$,..., $a_4$) əmsallarının qiymətləri hesablanmış və tənlikdə nəzərə alınmaqla çoxamilli reqressiya tənliyi aşağıdakı kimi verilmişdir:

$$y_i = 3{,}0342 + 0{,}0327x_1 - 0{,}0528x_2 + 0{,}0403x_3 + 0{,}2242x_4 , \qquad (3)$$

İşdə aparılmış hesabat nəticəsində alınan qiymətlər (3) reqressiya modelinin yüksək dərəcədə adekvatlığını təmin edir və göstərilir ki, modeldə qeyd edilən əsas göstəricilər nəzərə alınmaqla aqroturizmin inkişafının proqnozlaşdırılan qiyməti Y=14,9 min nəfər müəyyənləşdirilir. Eyni zamanda, tərtib edilən reqressiya modelindən aqroturizmin inkişafının proqnozlaşdırılması zamanı dövlət proqramlarının hazırlanmasında istifadəsi məqsədəuyğun hesab edilir.

Bu fəsildə kənd təsərrüfatı məhsulunun daşınması prosesinin əməliyyatlarına funksiyalar kompleksi şəklində baxılmış və onun məhsulun nəqliyyat vasitəsinə yüklənmə xərci ($F_1$), yanacaq xərci ($F_2$), sürücünün əmək haqqı ($F_3$), nəqliyyat vasitəsinin amortizasiya ayırmaları ($F_4$), Əmək və Sosial Müdafiə Fonduna ayırmalar ($F_5$), yükün boşaldılma xərci ($F_6$) və sair xidmət funksiyalarından ibarət olduğu göstərilmişdir. Funksiyaların xərclərdə xüsusi çəkisinin funksiyaların əhəmiyyətinə nisbəti ayrı-ayrı funksiyaların xərclər əmsalı (4) formulasından

$$i_{x_i} = \frac{I_{x_i}}{H_i} , \qquad (4)$$

hesablanmış, funksiyalar kompleksinin nisbi əhəmiyyəti ($H_i$) müəyyənləşdirilərək qiymətlər: $H_1$=7; $H_2$ =45; $H_3$=30; $H_4$=6; $H_5$=7; $H_6$=5 bal hesabı ilə verilmişdir. Funksional dəyər təhlili (FDT) nəticəsində proqnozlaşdırılan səmərə ($S^{\sum P}$) (5) formulasından müəyyənləşdirilmişdir :

$$S_{\sum P} = (S_1 + S_2 + S_3 + S_4)K_r , \qquad (5)$$

burada: $S_1$–cari xərclərin azaldılmasından əldə olunan səmərə;

$S_2$–ümumi xərclərin azaldılmasından əldə olunan səmərə;

$S_3$–məhsula çəkilən istismar xərclərinin azaldılmasından yaranan səmərə;

$S_4$–bu sahədə yeniliyin tətbiqinin artma surətindən və hazırlanan qərarların tətbiqindən əldə olunan səmərə;

$K_r$–risk dərəcəsi əmsalıdır.

Beləliklə, dissertasiya işində kənd təsərrüfatı məhsullarının daşınmasında funksional-dəyər təhlilindən istifadə olunmaqla məhdud informasiya şəraitində alınan səmərəliliyə ekspert qiymətinin verilməsi və qeyri-parametrik statistikanın metodlarından istifadə edilməsinin mümkünlüyü elmi cəhətdən əsaslandırılmışdır.

Dissertasiya işinin dördüncü fəsli **"Bazar münasibətləri şəraitində kənd təsərrüfatı məhsullarının istehsalı və satışının optimal strukturunun iqtisadi – riyazi modelləşdirilməsi" adlanır.** Bu fəsildə məhsul istehsalında önəmli əməliyyatlardan biri olan səpin üçün əlverişli torpaq sahəsinin seçilməsi metodikası verilmiş, istehsalçıların əmtəə-pul münasibətləri şəraitində məhsul seçimi kombinasiyasının modeli qurulmuş, ayrı-ayrı kənd təsərrüfatı məhsullarının təlabat səviyyəsi müəyyənləşdirilmiş və məhsulun istehsal həcminin yüksəldilməsi məqsədi ilə çoxamilli reqressiya modeli verilmişdir. Burada qeyd edilir ki, kənd təsərrüfat məhsulları istehsalının yüksəldilməsini təşkil edən elementlərə iqlim şəraitindən asılı olaraq əkin üçün əlverişli sahələrin əsaslandırılaraq seçilməsi, mütərəqqi istehsal üsullarının tətbiq edilməsi, elmi - texniki tərəqqi ilə qabaqcıl təcrübənin nailiyyətlərinin birgə kənd təsərrüfatı istehsalına tətbiqindən əldə olunan səmərənin yüksəldilməsi və s. aiddir.

İşdə göstərilir ki, kənd təsərrüfatı məhsullarının istehsal həcmi ilk növbədə səpin, cərgəarası becərmə və yığım əməliyyatlarının ardıcıl seçilməsindən çox asılıdır və qeyd olunan əməliyyatların yerinə yetirilməsi ehtimalından lazımi nəqliyyat vasitəsinin texniki parametrlərindən asılı olaraq mövsum ərzində onların tələb edilən sayı hesablanmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalının əlverişli strukturunun modelləşdirilməsi məqsədi ilə istehsalçının qərar qəbul etmə funksiyasının minimum riski və Bayes riski arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsi üçün optimallıq kriteriyasından istifadə olunmuşdur.

Kənd təsərrüfat məhsulu istehsal edən müəssisə və ya sahibkar maksimum mənfəət əldə etmək üçün minimum R(θ, δ) riski ilə qərar qəbul etməlidir. İstehsalçının $\delta_1$və $\delta_2$ qərar qəbul etmə funksiyalarına malik olduğu hala baxaq (şək. 2).




**Şəkil 2. $\delta_1$və $\delta_2$ qərar qəbul etmə funksiyalarının müqayisə qrafiki**

Şəkildən göründüyü kimi, $\delta_1$ funksiyasının ən kiçik riski $\theta_1 \leq \theta \leq \theta_2$ şərtinə uyğun əraziyə, $\delta_2$ funksiyasının ən kiçik riski isə $\theta \leq \theta_1$ və $\theta \geq \theta_2$ şərtinə uyğun əraziyə müvafiqdir. $\delta \in D$ funksiyasına o halda yol verilə bilər ki, $D^*$ cəmində $\delta_0$ funksiyası iştirak etməsin, δ funksiyası bütün $\theta \in \Omega$ şərti üçün ən münasib variant hesab olunsun. Bütün $\theta \in \Omega$ şərti daxilində həmin funksiya $R(\theta,\delta_1) \leq R(\theta,\delta_2)$ bərabərsizliyini ödəməlidir. Bu şərt daxilində risk funksiyasının riyazi gözləmədən düz mütənasib asılılığı (6) formulası ilə hesablanır:

$$R(\theta,d) = \mathrm{M}L(\theta,a) = \int_x L(\theta,a)dF(\bar{x}/\theta), \qquad (6)$$

burada: M- riyazi gözləməni;

*L(θ, a)* - $\theta$ və $d(\bar{x}) = a$ vəziyyətinə müvafiq olan itkini;

R(θ. $\delta$) - qərar qəbul etmə funksiyasının minimum riskini əks etdirir.

Təcrübədən asılı olmayan ζ paylanmasının müxtəlif vəziyyətləri ifadə edən Ω çoxluğunda olması onun təcrübədən əvvəlki paylanmaya aid olduğunu əks etdirir. Əgər ζ paylanmasında θ təsadüfi kəmiyyətdirsə, onda *R(θ,δ)* riski δ qərar funksiyasının təsadüfi dəyişənidir. ζ paylanmasında *r(ζ,δ)* riskinin riyazi gözləməsi aşağıdakı formula ilə hesablanır:

$$r(\xi,\delta) = MR(\theta,\delta) = \int_{\Omega} R(\theta,\delta)d\xi \quad , \tag{7}$$

burada: *r(ζ,δ)* - təcrübədən asılı olmayan ζ paylanması nəzərə alınmaqla *δ* qərar funksiyasının Bayes riski;

*R(θ,δ)* - qərar qəbul etmə funksiyasının minimum riskidir.

Tədqiqat işində (6) formulasına əsasən *R(θ,δ)* risk funksiyası hesablanılmış, hansı qərar funksiyasının nisbətən üstün olduğunu aydınlaşdırmaq məqsədilə (7) formulasından Bayes riskləri hesablanılmış- $r(\xi,d_1)=900$; $r(\xi,d_2)=900$; $r(\xi,d_3)=700$; $r(\xi,d_4)=805$ və bunlardan ən əlverişli $r(\zeta,d_3) = 700$ olduğu müəyyənləşdirilmişdir.

Buradan belə bir nəticəyə gəlinmişdir ki, kartof istehsalında hər iki şərtə müvafiq gələn sahələrdə səpinin aparılması əlverişlidir və bu halda, əkilən kartof sahəsinin 1 hektarından yığılan məhsul satışından əldə edilən gəlir 4,079 min manat təşkil edir. 2014-cü ilin statistik məlumatlarına əsasən respublikada kartofun ümumi yığımı 8193.0 min s., məhsulun hər sentnerinin satış qiyməti 30,67 manat olduğundan 251,279 milyon manat gəlirin əldə edildiyini hesablamaq mümkündür.

Dissertasiyada göstərilir ki, kənd təsərrüfatı məhsullarının tarladan anbara daşınması və istehlakçılara çatdırılması həm xərclər baxımından, həm də tələb edilən nəqliyyat vasitələrinin sayının təyin edilməsi baxımından mürəkkəb əməliyyatlardan biridir.

Daşımaların təşkili səviyyəsi daşıma prosesinin keyfiyyətindən, saxlanılmasından, daşımanın etibarlı və səmərəliliyindən, daşımalar sistemindən istifadənin əlverişliliyindən asılıdır. Daşımaların təşkili məqsədilə mərkəzləşdirilmiş avtomobil yük nəqliyyat müəssisələrinin xidmətlərindən istifadə edilir və bu tip müəssisələrin işi

daşınılan yüklərin həcmi və müəssisənin yük dövriyyəsi göstəricilərinə görə xarakterizə olunur.

Daşımaların iqtisadi məsələlərinə sifarişin və tələbatın həcmi, daşıyıcının seçilməsi, dislokasiyanın xarakteristikası, etibarlığın təmin edilməsi mərhələləri aiddir.

Daşımanın iqtisadi - riyazi modelinin struktur sxemi şəkil 3-də verilmişdir:




**Şəkil 3. Daşımanın iqtisadi-riyazi modelləşdirilməsinin struktur sxemi**

Dissertasiyada qeyd edilir ki, bölüşdürmə və satış mərkəzləri arasında əlaqə əhalinin sayı ilə (N) düz, onlar arasında olan məsafənin ($L_i$) kvadratı ilə tərs mütənasibdir :

$$N_1 L_2^2 = N_2 L_1^2. \quad (8)$$

(8) formulasından göründüyü kimi, istehsalın həcmi və yerləşmə məsafəsi istehsal müəssisəsinin yerləşmə yerini müəyyən edən əsas parametrlərdir və əhalinin sayının çox olduğu yerə satış mərkəzi yaxın yerləşdirilməlidir ki, daşıma xərcləri minimal olsun.

Tədqiqat işində məhsul daşınmasına nəqliyyat məsələsi kimi baxılmaqla elə həcm planı müəyyənləşdirilmişdir ki, bu zaman daşıma xərcləri minimal olsun. Qeyd edilir ki, kənd təsərrüfatında bəzi satış məntəqələri eyni zamanda daşıma məntəqəsi ola bilər, yəni onlara hər hansı kənd təsərrüfatı məhsulu daşınmaqla onlardan da nəqliyyat aqreqatının satış məntəqələrindən geri qayıdışı zamanı istifadə olunur. Məsələn, satış məntəqələrində boşaldıldıqdan sonra kənd təsərrüfatı məhsulunun qablaşdırıldığı

taraların geriyə anbara daşınması. Bizim baxdığımız halda, qarşıya qoyulmuş məsələnin həlli variantına məntəqələr arasında yük daşıma şəbəkəsindən ibarət həlqəvi marşrut kimi baxılmış və bu sxematik olaraq şəkil 4 - də verilmişdir:




**Şəkil 4. Həlqəvi marşrutda məhsul daşınmasının ən qısa yolunun müəyyən edilməsi qrafiki**

Kənd təsərrüfatı məhsulunun daşınması əməliyyatının bizim baxdığımız hal üçün münasib gələn alqoritmi: binar dəyişənlərin daxil edilməsi (Xij); kənd təsərrüfatı məhsulunun daşınması zamanı nəqliyyat vasitəsinin bütün satış məntəqələrində olmaqla hərəkət yolunun minimum uzunluğunu təmin edən məqsəd funksiyasının seçilməsi ($\sum_{i=1}^{n}\sum_{j=1}^{n} L_{ij}X_{ij} \rightarrow \min$); nəqliyyat vasitəsinin hər satış məntəqəsindən ancaq bir dəfə çıxa bilməsi ($\sum_{j=1}^{n} X_{ij} = 1,\ i = \overline{1,n},$); hər satış məntəqəsinə ancaq bir dəfə daxil ola bilməsi ($\sum_{i=1}^{n} X_{ij} = 1,\ j = \overline{1,n},$) və kənd təsərrüfatı məhsulunun satış məntəqələrinə daşınmasının qapalı dövrəsinin qurulmasını tələb edən məhdudiyyət şərti ($U_i - U_j + n\,X_{ij} \leq n - 1,\ i,j = \overline{2,n},\ i \neq j,$) yazılmışdır. Dissertasiyada bu şərtlər daxilində kənd təsərrüfatı məhsulunun anbardan Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən ($n = 6$) satış məntəqəsinə daşınmasının ən qısa məsafəsinin MS Excel proqramını tətbiq etmək yolu ilə təyin edilməsi məsələsinə baxılmışdır.

Satış məntəqələri arasındakı məsafələrin matrisinin ($L_{ij}$) hesabat qiymətləri cədvəl 2 – də verilir.

Matrisdə məntəqələr arasındakı məsafələrin gedişdə və gəlişdə fərqli olması şəhər daxili küçələrdə hərəkət istiqamətindən asılıdır, odur ki, $L_{ij} \neq L_{ji}$ olur.

**Cədvəl 2**

**Satış məntəqələri arasındakı məsafələrin matrisləri**

| Satış məntəqələri | 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|---|
| 1 | ∞ | 21 | 37 | 20 | 14 | 42 |
| 2 | 15 | ∞ | 12 | 3 | 25 | 9 |
| 3 | 22 | 12 | ∞ | 31 | 7 | 28 |
| 4 | 19 | 6 | 24 | ∞ | 17 | 13 |
| 5 | 8 | 41 | 23 | 15 | ∞ | 6 |
| 6 | 16 | 4 | 8 | 11 | 5 | ∞ |

Xij dəyişənlərinin matrisi cədvəl 3- də verilir.

**Cədvəl 3.**

**$X_{ij}$ dəyişənlərin qiymətlər çoxluğu**

| $X_{ij}$ | $X_{1i}$ | $X_{2i}$ | $X_{3i}$ | $X_{4i}$ | $X_{5i}$ | $X_{6i}$ | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| $X_{1j}$ | 0 | 0 | 0 | 1 | 0 | 0 | 1 |
| $X_{2j}$ | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 |
| $X_{3j}$ | 0 | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| $X_{4j}$ | 0 | 1 | 0 | 0 | 0 | 0 | 1 |
| $X_{5j}$ | 1 | 0 | 0 | 0 | 0 | 0 | 1 |
| $X_{6j}$ | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 |
| Cəmi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 6 |

Ümumi halda daşınılan yükün keçdiyi $n - 1 = 5$ satış məntəqəsi üçün (5x4)20 məhdudiyyət şərti olduğundan, hər satış məntəqəsi üçün qapalı dövrənin qurulmasını tələb edən məhdudiyyət şərtindən nümunə kimi biri hesablanmışdır:

$U_2 - U_3 + 6\,X_{2,3} \leq -3$, (2-ci satış məntəqədən 3-cü məntəqəyə);

$U_3 - U_4 + 6\,X_{3,4} \leq -4$, (3-cü satış məntəqədən 4-cü məntəqəyə);

$U_4 - U_5 + 6\,X_{4,5} \leq -5$, (4-cü satış məntəqədən 5-ci məntəqəyə);

$U_5 - U_2 + 6\,X_{5,2} \leq 4$, (5-ci satış məntəqədən 2-ci məntəqəyə);

$U_6 - U_3 + 7\,X_{6,3} \leq 5$, (6-cı satış məntəqədən 3-cü məntəqəyə).

Beləliklə, bütün yükün keçdiyi məntəqələr üçün məhdudiyyət şərtləri MS Excel proqramında hesablanmışdır. Hesabatın nəticələri 6 daşınma məntəqəsi ($n - 1 = 5$) halı üçün məhdudiyyət şərtlərinin qiymətləri müvafiq olaraq cədvəl 4- də verilir.

Məhdudiyyət şərtlərindən göründüyü kimi, kənd təsərrüfat məhsulunun anbardan satış məntəqələrinə daşınması üçün nəqliyyat vasitəsinin ən qısa hərəkət marşrutunun 1 ... → 5 ... → 3 ... → 6 ... → 2 ... → 4 ... → 1 satış məntəqələrində olma ardıcıllığı

**Cədvəl 4.**

**Məhsulun məntəqələrə daşınmasının məhdudiyyət şərtləri**

| $U_i - U_j + n X_{ij}$ | $j = 1$ | $j = 2$ | $j = 3$ | $j = 4$ | $j = 5$ | $j = 6$ |
|---|---|---|---|---|---|---|
| $U_2 - U_j + 6 X_{2j}$ | | 0 | -3 | 1 | -4 | 4 |
| $U_3 - U_j + 6 X_{3j}$ | | 3 | 0 | 4 | 5 | 1 |
| $U_4 - U_j + 6 X_{4j}$ | | 5 | -4 | 0 | - 5 | - 3 |
| $U_5 - U_j + 6 X_{5j}$ | | 4 | 1 | 5 | 0 | 2 |
| $U_6 - U_j + 7 X_{7j}$ | | 2 | 5 | 3 | -2 | 0 |

müəyyənləşdirilir. Bu zaman nəqliyyat vasitəsinin satış məntəqələrində olma ardıcıllığı aşağıdakı kimidir:

$l_1 \rightarrow l_5 \rightarrow l_3 \rightarrow l_6 \rightarrow l_2 \rightarrow l_4 \rightarrow l_1$ .

Bizim baxdığımız halda, kənd təsərrüfatı məhsulunun anbardan satış məntəqələrinə daşınma marşrutunun ümumi uzunluğunun $\sum L_{ij} = 58$ km olduğu müəyyən edilir.

Beləliklə, yükün anbardan satış məntəqələri arasında paylanmasında optimal marşrutun müəyyən edilməsinə şəbəkə ilə verilmiş nəqliyyat məsələsi kimi baxılmış və məhdudiyyət şərtləri əsasında qapalı dövrədə nəqliyyat vasitəsinin ən qısa marşrutunu təmin edən model qurulmuşdur.

İşdə göstərildiyi kimi, qapalı dövrə qurulmaqla kənd təsərrüfatı məhsulunun daşınmasının ən qısa yolu və səmərəli variantı modelinin əsasında bütün növ təsərrüfat müəssisələrində istehsal olunan məhsulların satış məntəqələrinə daşınmasının əlverişli variantının seçilməsi şərtləri daxilində tətbiqi məqsədəuyğun hesab olunur.

Tədqiqatda qeyd olunur ki, istehsalçıların əmtəə-pul münasibətləri şəraitində istehlak tələbatının, alıcılıq qabiliyyəti və məhsulun qiyməti arasındakı asılılıq modelinin qurulması nəticəsində ayrı-ayrı kənd təsərrüfatı məhsullarına olan tələbat səviyyəsini müəyyənləşdirmək mümkündür. Məqsədli funksiyanın modelinin kənd təsərrüfatı istehsalının müxtəlif sahələrində tətbiqi və onun iqtisadi səmərəliliyi müəllifin tədqiqatlarında xüsusilə vurğulanmışdır.

Modeli aydınlaşdırmaq məqsədi ilə tutaq ki, bazarda n növdə kənd təsərrüfatı məhsulları satılır. Bu zaman, cəmi istehlakçıların və ya bir qrupunun bazardakı istehlak tələbatı $Y=(y_i)$ vektoru, müxtəlif növdə məhsulların qiymətləri $P=(p_i)$ və istehlakçıların gəlirləri D məlum olduqda, onlar alınacaq məhsulu elə kombinasiyada seçməlidirlər ki, büdcələrinin məhdudluğu şərti ödənilsin, yəni $\sum_{i=1}^{n} P_i Y_i \le D$. Burada $U(Y)$ məqsədli funksiya ilə ifadə olunur və xeyirli səmərəni göstərir.

İstehlakçıların bu şərt daxilində bazardakı məhsul seçimi kombinasiyasının sadə modeli:

$$\begin{cases} U(Y) \to max; \\ PY \le D; \\ Y \ge 0, \end{cases} \qquad (9)$$

burada: (U(Y)- xeyirli səmərəni;

Y- istehlak tələbatını;

P - məhsulların qiymətini;

D - istehlakçıların gəlirlərini ifadə edir.

Modeldən göründüyü kimi, istehlakçıların məhsul seçimi onların gəlirləri ilə

məhdudlaşır. Həqiqətdə isə bəzi məhsulların bazarda azlığı istehlakçıların tələbatına əsas təsir göstərir. Bu şərt cəmi istehlakçılar üçün qurulan modeldə nəzərə alınmaqla Y vektorlar çoxluğunun məhdudluğuna daxil edilir. Ayrılıqda istehlakçılar qrupu üçün qurulan modeldə isə bu şərtin ödənilməsi nisbətən çətindir, çünki istehsal həcmi az olan məhsulun istehlakçı qrupları arasında bölüşdürülməsi prinsipinin müəyyənləşdirilməsi vacibdir.

Modeldə əsas şərtlərdən biri də əhalinin pul qənaətlərinin nəzərə alınmasıdır. Bu zaman əhalinin pul qənaətlərinin məqsədli funksiyanın artımına müsbət təsirindən və modeldən kənarda pul qənaətlərinin həcminin müəyyən edilməsindən istifadə etmək məqsədəuyğundur.

İstehlakçının məqsədli funksiyasının (9) sadə modeli qiymət və gəlir məlum olduqda alıcıların tələbat vektoru Y-i müəyyən edir. Bu zaman istehsal sferası tələbat mallarını təklif səviyyəsinə müvafiq olaraq istehsal etməlidir.

Məhsulların $Y^0$ vektoru məlum olduqda, elə qiymət və gəlir müəyyənləşdirmək mümkündür ki, istehlakçının tələbatı məhsula olan təklifə uyğun gəlsin. Bu məqsədlə məhsula olan tələb və təklifi tarazlaşdıran qiymət və gəlirləri hesablamaq mümkündür, yəni

$$U_i(Y^0) = \lambda p_i; \quad i = 1,2,...,n;$$

$$\sum_{i=1}^{n_1} p_i y_i^o = D, \tag{10}$$

burada: $n_i$ - satılan müxtəlif növ məhsullardır.

Tədqiqatda istehlakçıların məqsədli funksiyası ilə tələbat funksiyası arasında qarşılıqlı əlaqənin mövcudluğu vurğulanır və göstərilir ki, tələbat funksiyasını istehlakçıların məqsədli funksiyasından, eyni zamanda istehlakçıların məqsədli funksiyasını tələbat vektor-funksiyasından müəyyən etmək mümkündür.

Bu məqsədlə (10) formulasını gəlirə görə diferensial tənlik halında yazaq:

$$\sum_{i=1}^{n} P_i \frac{dy_i^*}{dz} = 1; \tag{11}$$

Həmin funksiyanı qiymətə görə diferensial tənlik halında yazaq:

$$y_k^* = -\sum_{i=1}^{n} P_i \frac{dy_i^*}{dp_k}. \tag{12}$$

(11) və (12) diferensial tənliklərindən məhsulun qiymətinin və gəlirin dəyişməsinin istehlakçıların tələbatına birbaşa təsiri aydın görünür. Bu tənliklərdəki $\frac{dy_i^*}{dz}, \frac{dy_i^*}{dp_k}$ ifadələri istehlakçıların tələbatının obyekti kimi məhsulların əsas xüsusiyyətlərini xarakterizə edir. İstehlakçıların gəlirinin artması nəticəsində «azqiymətli» məhsullara olan tələbat səviyyəsinin aşağı düşməsi (ərzaq məhsullarında – çörək, kartof, aşağı keyfiyyətli piylər və s.; sənaye məhsullarında - ayaqqabı, köhnə modelli paltarlar və s.) digər başqa məhsullarda gözlənilən $\frac{dy_i^*}{dz} > 0$ və $\frac{dy_i^*}{dp_k} < 0$ şərtləri ödəmir.

Dissertasiyada 2000–2014-cü illərdə əhalinin pul gəlirləri təhlil edilərək müəyyənləşdirilmişdir ki, ərzaq məhsullarının elastiklik əmsalının qiyməti 0,53 – 0,61 hüdudunda, qeyri-ərzaq məhsullarında və paltar, ayaqqabı, parçada isə bu göstərici az hududda dəyişir.

Ümumiyyətlə, tələbatın riyazi modelləşdirilməsinə bu cür diferensial yanaşma metodundan istifadə etməklə əhalinin gəlirləri və istehlakçının diferensial tələbat modelini onların əsas sosial qruplarının formalaşdırılması əsasında qurmaq olar. Bu modelin əsas tərkib hissəsini əhali qruplarının gəlirlərindən asılı olan tələbat funksiyası təşkil edir və 2015-ci ilin göstəricilərinə əsasən istehlakın gəlirdən asılılığını əks etdirən göstəricilərdə gəlirin 41,6 %- nin ərzaq məhsullarına, 58,4 %-nin isə qeyri-ərzaq malları və s. xərcləndiyini müəyyən etmək mümkündür ki, bu da həqiqi göstəricilərə çox yaxındır. Buradan aydın olur ki, əhali qruplarının tələbat funksiyası və əhalinin qruplar

üzrə bölüşdürülməsi məlum olduqda, müxtəlif növ məhsul üçün tələbat funksiyasının cəmini hesablamaq mümkündür.

Tədqiqat işində kənd təsərrüfatında bazar münasibətlərinin formalaşdırılması və inkişaf etdirilməsi üçün tədbirlər proqramının işlənilməsi və həyata keçirilməsində məhsulun istehsal həcminin artırılmasının proqnozlaşdırılmasının mühüm əhəmiyyəti vurğulanır və qeyd edilir ki, müxtəlif təsərrüfat formalarında məhsulun istehsal həcminin artırılmasının proqnozlaşdırılması ilkin informasiya mənbələrindən alınan məlumatlara əsaslanır.

Kənd təsərrüfatı məhsullarının istehsal həcminin proqnozlaşdırılması məqsədi ilə çoxamilli reqressiya modelini qurmaq üçün ötən dövr ərzində N (i=1,2,…,N) illərin statistik məlumatları əsasında məhsulun əkin sahəsi ($x_1$); yağıntıların orta illik miqdarı ($x_2$); fərdi sahibkarlıq təsərrüfatlarında məhsul satışının rentabelliyi ($x_3$); kartof əkinlərinə mineral gübrənin verilməsi ($x_4$) kimi müxtəlif amillərin təsirini ifadə edən göstəricilər elə seçilməlidir ki, bunlar bilavasitə istehsal həcminin dəyişməsinə bu və ya digər dərəcədə təsir göstərmiş olsun.

Bizim baxdığımız halda, respublikada kartof məhsulunun nümunəsində istehsal həcminin proqnozlaşdırılması modelinin qurulması üçün lazım gələn məlumatlar cədvəl 5 - də verilir.

y - in $x_1, x_2,…,x_m$ - dən asılı xətti reqressiya modeli bir növ məhsul nümunəsində standart şəkildə aşağıdakı kimi göstərilir:

$$y_i = a_0 + a_1 x_{i1} + a_2 x_{i2} + ... + a_m x_{im} + u_i (i = \overline{1, N}) \quad (13)$$

**Cədvəl 5**

**Kənd təsərrüfatı məhsulunun istehsal həcminin proqnozlaşdırılması**

| İllər | Məhsulun istehsal həcmi, min ton | Əkin sahəsi, min ha | Yağıntıların orta illik miqdarı, mm | Fərdi sahibkarlıq təsərrüfatlarında məhsul satışının rentabelliyi ,faiz | Kartof əkinlərinə mineral gübrənin verilməsi, kq/ha |
|---|---|---|---|---|---|
| 2005 | 1083,1 | 70,7 | 407,1 | 103,8 | 1 |
| 2006 | 999,3 | 66,8 | 462,0 | 76,4 | 1 |
| 2007 | 1037,3 | 67,1 | 458,0 | 48,2 | 3 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2008 | 1077,1 | 68,9 | 443,1 | 16,1 | 7 |
| 2009 | 983,0 | 65,6 | 571,2 | 73,2 | 12 |
| 2010 | 953,7 | 65,8 | 499,8 | 79,6 | 16 |
| 2011 | 938,5 | 65,2 | 605,8 | 68,5 | 10 |
| 2012 | 968,5 | 66,0 | 457,9 | 45,7 | 28 |
| 2013 | 992,8 | 65,3 | 453,0 | 46,2 | 28 |
| 2014 | 819,2 | 61,7 | 387,7 | 68,8 | 31 |
| 2015 | 839,8 | 61,0 | 472,6 | 61,0 | 26 |
| 2016 (proqnoz) | 853,2 | | | | |

Baxılan halda m=4, N=10 olduğu üçün, (13) xətti reqressiya modeli aşağıdakı kimi verilir:

$$y_i = a_0 + a_1x_{i1} + a_2x_{i2} + a_3x_{i3} + a_4x_{i4}, (i=1,\overline{10}). \qquad (14)$$

($a_1,a_2,a_3,a_4$) əmsallarının qiymətlərini hesablamaq üçün işdə PASCAL dilində kompyuter proqramından istifadə edilmişdir. Proqramın mətni və hesablamanın nəticələri Əlavələrdə verilmişdir. Hesabat nəticəsində qeyd edilən əmsalların, Darbin – Uotson kriteriyası və determinasiya əmsalının müvafiq qiymətləri hesablanmış və bu qiymətlər nəzərə alınaraq (15) modeli verilmişdir:

$$y_i = 823{,}42 - 0{,}0127x_{i1} + 0{,}0604\,x_{i2} - 0{,}0124\,x_{i3} + 0{,}1058x_{i4}\ , \qquad (15)$$

Kənd təsərrüfatı məhsulunun istehsal həcminin proqnozlaşdırılması üçün təklif edilən (15) modelinin adekvatlığı faktiki avtokorrelyasiya qalığının olub – olmaması əsasında müəyyənləşdirilir. Bu məqsədlə, işdə həmin göstəricinin müəyyən edilməsi üçün Kernelin müvəqqəti sıralarından istifadə etməklə onun aşağı ($d_L$) və yuxarı ($d_u$) həddi qiymətinin 5%- li səviyyəsi təyin edilmiş və modelin faktiki avtokorrelyasiya qalığının olub-olmama şərti seçilmişdir.

Kernelin müvəqqəti sıralarından $d_L = 0{,}56$ və $d_u = 2{,}21$ qiymətlərinin 5%-li səviyyəsini təyin etməklə, faktiki avtokorrelyasiya qalığının olmaması fərziyyəsi

yoxlanılır. Əgər, $DW > d_L$, onda avtokorrelyasiyanın həqiqi qalığının olmaması rədd edilir, $DW > d_u$ olduqda isə bu fərziyyə qəbul olunur. $d_L \leq DW \leq d_u$ halında isə məsələ açıq qalır. Bizim baxdığımız halda $DW > d_u$ olduğu üçün avtokorrelyasiyanın olmaması fərziyyəsi qəbul edilir.

Tədqiqat işində verilmiş (15) modelində göstəricilərin qiymətləri nəzərə alınaraq respublikada kartofun istehsal həcminin proqnozlaşdırılan qiyməti (y=853,2 min ton) hesablanmışdır. Eyni zamanda qeyd edilir ki, model istənilən növ məhsul üçün tətbiq edilə bilər. İşdə məhsul istehsalının proqnoz həcmi ilə faktiki istehsal həcmi müqayisə edilmiş və nəticəyə gəlinmişdir ki, model bütün növ məhsulların istehsal həcminin proqnozlaşdırılmasında tətbiq edilə bilər.

Dissertasiya işinin beşinci fəsli "**Kənd təsərrüfatı məhsullarının istehsalı və satışının iqtisadi tənzimlənmə mexanizmləri və onun təkmilləşdirilməsi istiqamətləri**" adlanır. Burada qeyd olunur ki, əhalinin istehlak ehtiyaclarının təmin olunma dərəcəsi bazardan alınan məhsulun onun tələbatına cavab verməsi səviyyəsindən asılıdır. Müəyyənləşdirilmişdir ki, yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulunu alan istehlakçıların ehtiyacları bütövlükdə təmin olunursa, onda sifarişçilərin təqribən 85% - dən çoxu həmin məhsulu əldə etmək üçün təkrarən sifariş verir. Dissertasiyada qeyd edilir ki, istehlakçıların tələbatının ödənilməsinin əsas təşkiledici elementlərinə istehlakçı qiyməti və ehtiyacların təmin olunma səviyyəsi aiddir. Kənd əhalisinin istehlak ehtiyaclarının təmin olunması onların yaşayış səviyyəsinin yaxşılaşdırılması və əmək haqqı ilə bağlıdır. Eyni zamanda, əmək haqqı istehsal olunan ümumi məhsulun dəyərindən, əldə edilən ümumi gəlirdən, onun artımından və istehsal həcmindən asılıdır.

Tədqiqat işində göstərilir ki, əhalinin həyat səviyyəsi bilavasitə gəlirlərin həcmi ilə müəyyən edilir və bazar münasibətləri şəraitində onların sosial müdafiəsinin mühüm istiqaməti gəlirlərin səviyyəsinin artırılması hesab edilir ki, bu da dövlətin sosial siyasətinin əsas tərkib hissəsidir. Əhalinin həyat səviyyəsinə isə bir sıra iqtisadi göstəricilər, o cümlədən gəlir və istehlakın bir-birindən asılılığı, gəlirlərin diferensiallaşdırılması təsir göstərir. İnsanların həyat səviyyəsinin aşağı düşməsi əhalinin ayrı – ayrı qruplarının istehlak səviyyələri arasında fərqlərin yaranmasına gətirib çıxarır. Bu

baxımdan, əhalinin az təminatlı təbəqəsinə yardım göstərilməsi dövlətin sosial siyasətinin əsasını təşkil edir. Belə ki, əhalinin az təminatlı təbəqəsinin həyat səviyyəsini tam yüksəltmək mümkün olmasa da onların sayının azaldılması mühüm məsələdir, əks halda əhalinin az təminatlı təbəqəsinin çoxalması cəmiyyətdə sosial partlayışla və onların həyatında qeyri-sabitliklə nəticələnə bilər.

Tədqiqat işində göstərilir ki, bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən biri gəlirlər üzrə dövlət siyasətinin həyata keçirilməsidir və bunun əsasını gəlirlərin dövlət büdcəsi vasitəsilə yenidən bölüşdürülməsi, yəni müxtəlif əhali təbəqəsinin gəlirlərinin vergiyə cəlb olunmasının diferensiallaşdırılması təşkil edir.

Dissertasiyada qeyd olunur ki, dövlət milli gəlirin yenidən bölüşdürülməsi ilə əhalinin az təminatlı təbəqəsinə sosial yardım göstərilməsini həll edir, əmək ehtiyatlarına təkrar istehsalda iştirak etmək üçün normal şərait yaradır, ölkədə sosial gərginliyin aradan qaldırılması və ya zəiflədilməsini təmin edir. Gəlirlərin stabilləşdirilməsində dövlət proqramının müxtəlif ölkələrdə formalaşması qaydası fərqlidir. Bu proqramın maliyyələşdirilməsi ilə bağlı vəsaitin bir hissəsi dövlət büdcəsindən formalaşdırılaraq mərkəzləşdirilmiş qaydada istifadə olunur, digər hissəsi isə müəssisələrin mənfəəti və fondları hesabına formalaşdırılır. Məsələn, keçmiş sovetlər ittifaqı ölkələrində bu proqram üçün vəsaitin 70 – 75% - i dövlət büdcəsindən, qalan 25–30% - i isə müəssisələrin mənfəətindən maliyyələşdirilirdi.

Tədqiqat işində belə bir nəticəyə gəlinir ki, milli gəlirin yenidən bölüşdürülməsinə dövlətin fəal müdaxiləsi və gəlirlərin bərabərləşdirilməsi cəmiyyətdə işgüzar əhali təbəqəsinin fəaliyyətinin zəifləməsinə, bütövlükdə istehsalın səmərəliliyinin aşağı düşməsinə gətirib çıxarır. Digər tərəfdən isə gəlirlərin tənzimlənməsinə dövlətin zəif müdaxiləsi əhalinin gəlirlərinin diferensiallaşmasına, ölkədə sosial gərginliyin artmasına, ümumilikdə istehsalın aşağı düşməsinə və onun səmərəliliyinin azalmasına səbəb olur, nəticədə ölkədə əhalinin sosial ziddiyyətləri daha da kəskinləşir və bu partlayışa səbəb olur.

Tədqiqat işində göstərilir ki, ərzaq probleminin həllində və əhalinin istehlak

ehtiyaclarının təmin edilməsində respublikada yaradılan müxtəlif təsərrüfatçılıq formalarının rolu eyni deyildir. Odur ki, hər bir zonanın konkret yerli xüsusiyyətlərini, ənənələrini, torpaq, əmək və digər maddi texniki ehtiyatlarla təminatını nəzərə alaraq müvafiq təsərrüfatçılıq formalarının inkişafına üstünlük verilməlidir. Keçmiş sosialist iqtisadi sistemindən yeni bazar münasibətlərinə əsaslanan iqtisadi sistemə keçid nəticəsində aqrar sahənin müxtəlif təsərrüfatçılıq formaları və təşkilati – hüquqi müəssisələri yaradılmışdır. Hazırda, bu təsərrüfatçılıq formaları istehsal etdiyi məhsullara sərəncam verməkdə və onların satışında tamamilə sərbəstdirlər, bunun nəticəsidir ki, istehsalçılar məhsullarını birbaşa və dolayı kanallarla satmaq imkanına malikdirlər. Bu baxımdan, kənd təsərrüfatı məhsullarının satışı prosesində yaranmış problemlərin aradan qaldırılması üçün bazar münasibətləri inkişaf etmiş xarici ölkələrin iş təcrübəsindən istifadə etməklə ölkənin regionlarında, o cümlədən Bakıda, Gəncədə, Sumqayıtda, Şirvanda, Mingəçevirdə, Lənkəranda, Bərdədə, Şəkidə və s. iri şəhərlərdə satış yarmarkalarının, topdansatış ərzaq bazarlarının, yaşıl marketlərin formalaşdırılması və təşkil edilməsi əhəmiyyətli məsələlərdən biridir. Təşkil ediləcək bu növ xidmət sahələri özlərində ticarət obyektlərini, müvəqqəti ərzaq saxlanma anbarlarını, inzibati təyinat məqsədi üçün nəzərdə tutulan binaları, həmçinin köməkçi xidmət sahələrini birləşdirməklə, tənzimlənən və asan idarə olunan mexanizm rolunu oynamaqla bazarın mühüm infrastrukturu olmalıdır. Eyni zamanda işdə qeyd edilir ki, bu növ xidmət sahələrinin tərkibində yeraltı yollar, mehmanxana, tibb və poçt xidməti məntəqələri, məhsulun keyfiyyətinə nəzarət və təhlükəsizlik xidmətləri, sanitar – gigiyena xidmətləri və informasiya – marketinq xidmətləri mərkəzi yaradılmalı və həmin növ xidmət strukturlarının fəaliyyətini tənzimləyən qanun qəbul olunmalıdır.

Dissertasiyada göstərilir ki, hazırkı şəraitdə Azərbaycanda aqrar bazara dövlət himayəsi, subsidiya və dotasiyaların verilməsi lazımi səviyyədə təşkil edildiyindən məhsulun istehsal həcminin artımında və iqtisadi səmərəliyin yüksəldilməsində nəzərəçarpacaq dərəcədə dəyişiklik vardır. Bu baxımdan, dissertasiyada inkişaf etmiş ölkələrin bu sahədəki işlək mexanizmindən və aqrar bölmənin inkişafı üçün tətbiq edilən proqramlardan istifadə olunmasının məqsədəuyğunluğu qeyd edilir.

Tədqiqat işində göstərilir ki, kənd təsərrüfatı əhalisinin tələbatının ödənilməsini təmin edən proqram ərzaq məhsullarının istehsalını və satışını özündə əks etdirir. Ərzaq bazarının formalaşdırılması və onun təmin edilməsinin ən başlıca xüsusiyyəti kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının həcmini məhsuldar qüvvələrin inkişafı səviyyəsi ilə uyğunlaşdırmaqdan ibarətdir. Bütün bu uyğunlaşmalar isə ölkənin ümumi iqtisadi inkişaf səviyyəsi ilə müəyyən edilir. Bu baxımdan, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində əsas məqsəd əhalinin real gəlirlərinin həcminin artım səviyyəsinin, digər makroiqtisadi göstəricilərinin dünyanın inkişaf etmiş ölkələrinin göstəriciləri səviyyəsinə çatdırılmasından ibarətdir. Son illərdə aparılmış aqrar islahatlar məhsul istehsalında azad bazarın konyunkturuna olan tələblərin ödənilməsi ilə nəticələnmişdir . Belə ki, aqrar sahənin inkişafını onun formalaşmasına dövlətin təsiri olmadan təsəvvür etmək mümkün deyildir. Bu baxımdan dövlət aqrar bölmənin vahid təşkilati–hüquqi obyekt kimi idarə edilməsini, müxtəlif mülkiyyət formalı müəssisələrin birliyinin qorunması və onlar arasında istehsalın əlverişli şəkildə bölüşdürülməsini, kənd təsərrüfatı ilə sənaye arasında aqrar bölmənin qiymət paritetinin (bərabərliyinin) təmin olunması və saxlanılmasını, kənd təsərrüfatında elmi – texniki tərəqqinin nailiyyətlərindən istifadə edilməsi məqsədi ilə tələb olunan səviyyədə investisiyaların qoyulmasını, bazar prinsiplərinin dövlətin təsiri mexanizminə münasib uyğunlaşmasını, yerli məhsul istehsalının qorunması üçün dövlət tərəfindən tədbirlər sisteminin hazırlanması və icrasına nəzarət edilməsini həyata keçirir.

Tədqiqat işində göstərilir ki, müasir şəraitdə aparılan aqrar siyasət ölkədə kənd təsərrüfatı məhsullarının idxalının azaldılmasına və xaricdən gətirilən ərzaq məhsullarından asılılığı tədricən aradan qaldırmağa yönəldilir. Dövlət, eyni zamanda, iqtisadiyyat sahələrinin yeni formalarının, o cümlədən kəndli fermer təsərrüfatlarının maliyyə vəziyyətinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirməlidir. Bu baxımdan, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, satışı, aqroservis xidməti, ticarət və kredit strukturlarının fəaliyyətinin əlaqələndirilməsinə və iqtisadi cəhətdən stimullaşdırılmasına dövlətin gücü ilə nail olunur.

Aqrar bazarın dövlət tənzimlənməsinin həyata keçirilməsində birbaşa məhdud və ya

müstəqim tənzimlənmə, dolayı və ya qeyri-müstəqim tənzimlənmə formalarından istifadə olunur.

Dövlət kənd təsərrüfatı məhsullarının qiymətinin tənzimlənməsi, xarici məhsulların tələbata uyğun olaraq ölkəyə gətirilməsi, subsidiya, vergi və s. kimi iqtisadi mexanizmlərdən istifadə edir. Qiymətin tənzimlənməsində birinci şərt istehsal və istehlak arasında olan fərqin dövlət tərəfindən yaradılmış ehtiyatların hesabına bərabərləşdirilməsidir. Belə ki, bazarda ərzaq məhsullarının qiyməti aşağı düşərsə, dövlət həmin məhsulları alıb saxlayır və qiymət qalxdıqda onun səviyyəsini aşağı salmaqla nizamlayır. Bu məqsədlə dövlət ilk növbədə müvafiq agentliklər yaratmalı, həmin agentliklər bazarla mütəmadi olaraq əlaqə saxlamalı və qiymət minimum səviyyədən aşağı olduqda ərzaq məhsullarının alışını həyata keçirməli, qiymət qalxdıqda isə onu dövlətin müdafiə etməsi məqsədilə daxili bazarda məhsul satışını müəyyən müddətə dayandırmalı və ya qiymətin həddini minimuma endirməlidir. Bununla da dövlət fermer və ya başqa özəl təsərrüfat formalarının azad qiymətlərindən fərqli olaraq daha yüksək qiymətlərlə kənd təsərrüfatı məhsullarının satışını təmin edir və onlarda əmtəə istehsalının artırılmasında maddi maraq yaradır.

Aqrar bölmənin fəaliyyət dairəsinin dövlət tənzimlənməsi maddi- texniki təchizat, maliyyələşmə, kreditləşmə, vergi, sığorta, daxili bazarda və xarici iqtisadi əlaqələrdə istehlakçıların marağının qorunması, elmi – texniki tərəqqinin inkişafı, kəndin sosial inkişafı və əhalinin müdafiəsi məsələlərini əhatə etməlidir.

Tədqiqatda göstərilir ki, Azərbaycan modeli kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsində aqrar sektora dövlət himayəsinin həyata keçirilməsinə daha çox fikir verilməsinə xidmət edir. Müasir şəraitdə aqrar sektorda dövlət himayəsinin əsas məqsədlərindən biri kənd təsərrüfatı məhsulları ilə istehsal vasitələrinin qiymətləri arasında paritetlik şərtinin pozulmasından meydana gələn problemlərin aradan qaldırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsindən ibarətdir. İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, aqrar iqtisadiyyatın dövlət tənzimlənməsi aqrar sahənin və makroiqtisadiyyatın inkişafı, yerli kənd təsərrüfatı məhsulları istehsalçıları ilə dövlət, emal müəssisələri arasında qarşılıqlı münasibətlərdə paritetliyin saxlanılması və

bu məqsədlə düzgün maliyyə mexanizminin formalaşdırılmasından çox asılıdır. Elə bu baxımdan da, respublikanın rayon mərkəzlərində və iri şəhərlərində məskunlaşmış əhalinin il boyu kənd təsərrüfatı məhsulları ilə təmin olunması üçün şəhər ətrafı zonalarda soyuducu anbarlarla təchiz olunmuş bazaların, regionlarda aqroparkların yaradılmasına istiqamətlənmiş işlər sürətlə həyata keçirilir.

Tədqiqatda qeyd olunur ki, topdansatış qiymətlər formalaşdırıldıqda kənd təsərrüfatı məhsullarının istehsal xərcləri, məhsul vahidinə çəkilmiş kommersiya xərcləri, həmçinin satışın imkan və şəraitindən asılı olaraq mənfəətin məbləği nəzərə alınmalı və məhsulun topdansatış qiymətlərinə ticarət əlavəsi qoyulmaqla tədavül xərcləri ilə pərakəndə satış müəssisələrinin mənfəəti birgə hesablanılmalıdır. Bu baxımdan, açıq tipli səhmdar cəmiyyəti formasında topdansatış ərzaq bazarlarının təşkil olunması və dövlət tərəfindən onun fəaliyyətinə nəzarət edilməsi əhəmiyyətlidir.

Dissertasiya işində göstərilir ki, vergi siyasəti iqtisadiyyatın dövlət tənzimlənməsinin ən mühüm elementlərindən olmaqla iqtisadiyyatın sahə və struktur quruluşunun müəyyən edilməsində, kapital qoyuluşunda, ölkənin xarici iqtisadi fəaliyyətində mühüm rol oynayır və hökumət tərəfindən müəyyən edilən vergiqoyma sistemi tənzimləmə funksiyasını yerinə yetirir. Son illərdə vergilərin dərəcəsinin aşağı salınması müəssisə və firmaların mənfəətinin artmasına, təsərrüfat fəaliyyətinin, işçilərin stimullaşma prinsipinin güclənməsinə, kapital qoyuluşunun və məşğulluğun dirçəlməsinə gətirib çıxarır. Eyni zamanda, liberal xarici iqtisadi siyasət həyata keçirməklə dövlət gömrük rüsumlarını dəyişir, ticarətdə güzəştlər edir. Belə ki, gömrük rüsumlarının artırılması ilk növbədə ixrac edilən məhsulların bahalaşmasına, xarici ticarət dövriyyəsinin aşağı düşməsinə gətirib çıxarır, əksinə rüsumların aşağı salınması isə daxili bazarda rəqabətin güclənməsinə, qiymətlərin aşağı düşməsinə və xarici ticarətin fəallaşmasına səbəb olur.

Tədqiqat işində göstərilir ki, dövlətin iqtisadiyyatının inkişaf etdirilməsində vergi siyasətinin düzgün həyata keçirilməsi mühüm əhəmiyyətə malik olmaqla vergi həm iqtisadiyyatın tənzimlənməsi, həm də milli gəlirin idarə edilməsi və paylanması aləti kimi çıxış edir. Odur ki, bazar iqtisadiyyatını genişləndirmək məqsədilə dövlət vergi növlərini, vergi bazasını, vergi yığımının obyekt və subyektlərini, vergi dərəcələrini,

güzəştlər və vergi sanksiyaları müəyyən etməklə, vergilərin müəyyən edilməsinin şərtlərini dəyişir, ümummilli maraqları qoruyur və sahibkarlıq fəaliyyətini stimullaşdırır. Ümumiyyətlə, vergi siyasətində əsas məsələ, daha çox vergi yığılması deyil, daha çox vergi mənbələrinin müəyyənləşdirilib meydana çıxarılmasıdır. Odur ki, vergi mənbələrinin sayının optimal miqdarını hesablamaq üçün müxtəlif müəssisələrdən, o cümlədən kənd təsərrüfatı istehsalı və satışı ilə məşğul olan müəssisələrdən vergi yığımını nizamlamaq məqsədilə optimal vergi dərəcələrinin təyin edilməsinin iqtisadi – riyazi modellərindən istifadə olunur. Bu modellər qurulduqda əsas kriteriya vergi ödəyicilərinin mənbələrinin müəyyənləşdirilib meydana çıxarılması hesab olunur.

Dissertasiyada bazar iqtisadiyyatı ölkələrində maliyyənin iqtisadiyyatın tənzimlənməsi üçün ən səmərəli vasitə olduğu vurğulanır. Eyni zamanda maliyyə, valyuta və qiymətli kağızlar bazarının fəaliyyət göstərməsi iqtisadiyyatın ayrı – ayrı sferalarında resursların yenidən bölüşdürülməsinə imkan yaradır. Maliyyə siyasətinin həyata keçirilməsində dövlət maliyyə mexanizmindən istifadə edir. Maliyyə mexanizminin əsası maliyyə resursları, maliyyə münasibətlərinin təşkilinin forma və xüsusiyyətlərindən ibarətdir. Dövlətin maliyyə sisteminin hərtərəfli fəaliyyətində müvafiq qanunların, hüquqi normaların, qanunvericilik aktlarının hazırlanması və müəssisələr, firmalar tərəfindən onların istifadəsi mühüm əhəmiyyətə malikdir. Belə ki, hüquqi normalar, qanunvericilik aktları cəmiyyətin, kollektivin və ayrı – ayrı fiziki şəxslərin, vətəndaşların iqtisadi mənafelərini müdafiə etməklə onlar arasında maliyyə əlaqələrinin təşkili qaydalarını müəyyən edir.

Tədqiqat işində qeyd edilir ki, müxtəlif növ təsərrüfat müəssisələrinin maliyyə nəticələrinin dəyişmə dinamikasında butun maliyyə - təsərrüfat fəaliyyəti üzrə rentabellik səviyyəsi 2005- ci ildə 5,1% olduğu halda, 2014- cü ildə 3,4 dəfə artmış və 17,0% təşkil etmişdir. Eyni zamanda, fəaliyyət göstərən bütün təsərrüfatlarda ziyanla işləyən müəssisələrin xüsusi çəkisi 2005-ci ildə 17,1 % olduğu halda, 2014-cü ildə 2,34 dəfə azalmış və 7,3 % təşkil etmişdir.

Kənd təsərrüfatı müəssisələrində ziyanla işləyən təsərrüfatların sayı 2005-ci illə müqayisədə 2014 - cü ildə 2,3 dəfə azalmış, ümumi gəlir isə müqayisə edilən dövrdə

7,0 dəfə artmışdır.  Buradan göründüyü kimi, son illərdə ziyanla işləyən müəssisələrin sayının azalması dövlətin həmin müəssisələrə uzun müddətə verdiyi kreditlərdən səmərəli istifadənin, ilk illərdə onların vergidən azad olunmasının, son dövrdə aparılan sərt maliyyə kredit siyasətinin və müəssisələrə sərbəstlik verilməsinin nəticəsidir.

Tədqiqat  göstərir ki, hazırda ölkədə mövcud  olan kredit sistemi xalq təsərrüfatının bütün sahələrinin, o cümlədən kənd təsərrüfatının kreditə olan tələbatını qismən ödəyir və ölkədə kredit sisteminin dövlət tərəfindən tənzimlənməsi xüsusi institutlar vasitəsilə həyata keçirilir. Bu baxımdan, bütün təsərrüfat formalarının kreditə olan ehtiyacının təmin edilməsi, onların fəaliyyətindəki maliyyə çətinliklərinin aradan qaldırılması üçün dövlət və qeyri-dövlət təşkilatlarının, eyni zamanda xüsusi yardım fondlarının fəaliyyət mexanizmi tərtib edilməklə  dövlət onların fəaliyyətinə nəzarət edir, həm də  onların qəbul edilmiş qanunlar çərçivəsində işlərinə nəzarəti təşkil edir. Son illərdə kredit sistemi vasitəsi ilə qiymətlərin dövlət tərəfindən tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında “Sahibkarlığa Kömək Milli Fondu”nun, Mərkəzi bankın və özəl bankların kiçik, orta və iri həcmli kreditlərlə biznesin inkişafına göstərdiyi kredit dəstəyi, dövlətin bu sahədə qarşıya qoyduğu ən ümdə məsələlərindən biri kimi icra edilməsinə istiqamətləndirilmiş tədbirlər sırasına şamil edilir. Eyni zamanda, işdə qeyd edilir ki, dövlət kredit sisteminin təkmilləşdirilməsi məqsədi ilə çoxpilləli kredit qaydalarının tətbiqini formalaşdırmalı, qiymətli kağızlar bazarının qanunauyğunluqla yaradılmasına şəraiti təmin etməli və bütün maliyyə – kredit institutlarının qiymətli kağızlar bazarı ilə sıx əlaqələndirilməsini həyata keçirməlidir. Dissertasiya işində təklif edilən çoxpilləli kredit qaydalarının tətbiqinin əsas müsbət cəhəti ondadır ki, sahibkarlar öz təsərrüfatlarındakı maliyyə çətinliklərini bu yolla aradan qaldırmaqla istehsal həcminin genişləndirilməsinə, işçilərin əmək haqının yüksəldilməsinə nail olmaq imkanını əldə edirlər.

Dissertasiyada qeyd edilir ki, ölkənin xarici iqtisadi fəaliyyətinin klassik tənzimlənmə metodu olan  gömrük tarifləri öz təsir xarakterinə görə xarici iqtisadi tənzimlənmənin iqtisadi vasitələrinə aiddir. Gömrük tarifi ölkəyə idxal edilən, bəzi hallarda isə həmin ölkədən ixrac edilən mallara sistemləşdirilmiş şəkildə gömrük

ödəmələrinin siyahısını göstərir. İdxal zamanı gömrük rüsumlarının tutulması yolu ilə dövlət xarici məhsulların qiymətinin artmasıına, eyni zamanda onun rəqabətlilik qabiliyyətinin aşağı düşməsinə imkan yaradır. Hal – hazırda dünya təcrübəsində gömrük tarifləri 100- dən çox ölkədə tətbiq olunur və ayrı – ayrı ölkələrin bu göstəricisinin xüsusiyyətləri nəzərə alınmaqla onları sənayecə inkişaf etmiş ölkələrin tarifi və inkişaf etməkdə olan ölkələrin tarifi qrupuna aid etmək məqsədəuyğun hesab edilir.

Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin səmərəli tənzimlənməsi, daxili bazarın qorunması, ölkə iqtisadiyyatının inkişaf etdirilərək stimullaşdırılması, dövlətin iqtisadi siyasətinin təmin edilməsi, gömrük işinin beynəlxalq normalara müvafiq olaraq yerinə yetirilməsi və s. məsələlərin həlli dövlət gömrük siyasətinə daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında ixrac–idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında» 12 aprel 2001-cı il tarixli 80 nömrəli qərarına əlavə və 2007-ci il 27 noyabr tarixli 189 nömrəli qərarı

ilə ixrac–idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləş-dirilməsinə görə alınan gömrük yığımlarının miqdarı təsdiq edilmişdir.

İdxal gömrük rüsumlarının dərəcələri malın mənşə ölkəsindən asılı olaraq diferensiasiya olunur və Azərbaycan Respublikası ilə həmin malın mənşə ölkəsi arasında əlverişli ticarət rejimi mövcuddursa, onda idxal gömrük rüsumlarının dərəcələri və gömrük rüsumuna cəlb olunmayan malların siyahısı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Gömrük tarifi haqqında" Qanunun 3-cü maddəsinin, 3-cü bəndinə əsasən müəyyən edilir.

Bu qanuna əsasən respublikaya idxal olan kənd təsərrüfatı məhsullarına tətbiq edilən gömrük rüsumları müxtəlifdir. Kənd təsərrüfatı üçün toxum, gübrə, yem, damazlıq heyvanlar, dərman preparatları, baytarlıq təbabətində tətbiq olunan dərman, bioloji preparatlar və baytarlıq ləvazimatları, habelə kənd təsərrüfatı texnikası, onların ehtiyat hissələri kənd təsərrüfatı məhsullarının emalına tələb olunan xammal – material, avadanlıq və inventarlar gömrük vergi və rüsumlarından azaddır.

Azərbaycan Respublikasının 2015-ci il xarici ticarət göstəricilərinin təhlilindən göründüyü kimi, idxalın xüsusi çəkisi 33,5% təşkil etmişdir. Bu baxımdan da, ölkə üzrə kənd təsərrüfatı məhsullarının idxal və ixracının xüsusi çəkisinin tərkibi müqayisə edilir və 2013-cü ildə buğda ehtiyatları və istifadəsi, süd və süd məhsullarının ehtiyatları və istifadələri, yumurta ehtiyatları və istifadələri üzrə idxalın həcminin ixracdan dəfələlə çox olması, eyni zamanda bütün növ tərəvəz ehtiyatları və istifadəsi, şəkər və şəkərdən hazırlanan məhsulların ehtiyatları və istifadəsi, meyvə və giləmeyvələrin ehtiyatları və istifadəsi üzrə ixrac həcminin çox olması dövlətin bu növ məhsulara olan tələbatın ödənilməsi məqsədi ilə həyata keçirdiyi tədbirlərin nəticəsi kimi qiymətləndirilə bilər. Bu bir daha onu göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsal həcminin tənzimlənməsinə dövlətin gömrük siyasəti ölkədə aqrar sahənin inkişafına istiqamətləndirilmişdir.

Dissertasiyada belə bir nəticəyə gəlinir ki, dövlətin gömrük siyasəti gömrük rəsmiləşdirmələrinə görə gömrük yığımlarında malın gömrük dəyərinə görə müəyyənləşdirilməsinə istiqamətləndirilməlidir. Bu baxımdan, tədqiqat işində həyata keçirilməsi məqsədəuyğun hesab edilən təkliflərin respublikada gömrük xidmətlərinin yüksək səviyyədə təşkilinə yönəldilməsi istiqamətində dövlət proqramları hazırlanarkən tətbiq edilməsində vacib şərtlərdən biri hesab edilir və onların istifadəsindən əldə edilən vəsaitlərin respublika gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndiril-məsinə və Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla müvafiq gömrük orqanlarının struktur genişləndirilməsinə sərf edilməsi nəzərdə tutulmalıdır.

Dissertasiyanın "**Nəticə və təkliflər**" hissəsində kənd təsərrüfatı məhsullarının istehsalı və satışının təşkilati - iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri ilə bağlı nəticəyə gəlinmiş və elmi cəhətdən əsaslandırılmış təkliflər verilmişdir.

**Dissertasiya işinin mahiyyətinə dair müəllifin aşağıdakı elmi əsərləri dərc edilmişdir**:


1. Влияние способов прореживание на урожайностъ хлопчатника. Закавказская конференция молодых ученых и специалистов на тему : Интенсификация агропромышленного производства на современном этапе. Баку-1989, с.108-112.

2. Kənd təsərrüfatı maşınlarının iqtisadi – texniki göstəricilərinin yüksəldilməsi. Kənd Təsərrüfatı Elmi Xəbərləri, Bakı-1989, № 3 (128), s. 79-82.
3. Обоснование технологических и экономических параметров прореживателя хлопчатника . “Экономика селъского хозяйства”. Москва-1988, №4, с.61-63.
4. Определение число семян хлопчатника в гнезде. “Экономика селъского хозяйства”. Москва-1990, № 2, с.15-16.
5. Управление процессом обслуживания селъскохозяйственных машин. “Механизация и электрификация селъского хозяйства”. Москва - 1991, №12, с. 26-27.
6. Выбор оптимального режима работы сельскохозяйственных машин. “Механизация и электрификация селъского хозяйства”. Москва-1990, № 7, с. 60-61.
7. Əhalinin istehlak ehtiyaclarının təmin olunmasında dövlətin rolu. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı - 2001, с.76-82.
8. Моделирование оптималъного варианта перевозки селъскохозяственной продукции. “Труд и социалъное отношения”. Москва-2002, № 3 (17), с.46-52.
9. Kənd təsərrüfatı məhsullarının istehsalında əmək məhsuldarlığı və iş normasının təyin olunma metodikası. “Maliyyə və uçot” jurnalı. Bakı-2002, № 10, с.26-34.
10. Выбор оптимальных параметров прореживателя всходов хлопчатника. “Техника в сельском хозяйстве”. Москва-1989, № 4, с. 59-60.
11. Устойчивость работы сельскохозяйственных машин на склонах. “Механизация и электрификация сельского хозяйства”. Москва-1991, №10, с. 55-58.
12. Определение критерия максимизации средней ожидаемой прибыли. Всесоюзная научно – практическая конференция на тему: «Россия и регионы: новая парадигма развития». Часть-II, Челябинск, 2002, с.237-240.
13. Методика расчета влияния различных факторов на объем производство продукции животноводства. “Труд и социальное отношения”. Москва-2003,

№3 (22), с. 14-19.

14. Kənd təsərrüfatı məhsullarının satışı və istehlakçıların tələbatlarının ödənilməsinin iqtisadi göstəriciləri. “Maliyyə və uçot” jurnalı. Bakı-2003, №11 (131), s. 37-44.

15. Kənd təsərrüfatı məhsullarının istehsalı və satışının maliyyə nəticələrinin müasir vəziyyəti və dinamikası. Azərbaycan Respublikasında İqtisadi İslahatlar “İlkin nəticələr, problemlər və prespektivlər” mövzusu üzrə Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı-2003, s. 190-192.

16. Bazar münasibətləri şəraitində kənd təsərrüfatı məhsullarının istehsalı, satışı və ona təsir edən amillər. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı- 2003, s. 189-196.

17. Влияние резервов увеличения производства сельскохозяйственной продукции с исползованием математических методов. XX Международная научно-практическая конференция на тему: «Россия и регионы: ориентиры политического и экономического развития». Часть-IV, Челябинск, 2003, с. 269-273.

18. Respublikada kənd təsərrüfatı məhsullarının istehsalının mövcud vəziyyəti və ona təsir edən amillərin qruplaşdırılması. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Elmi əsərlər toplusu. Gəncə-2004, s. 35-46.

19. Kənd təsərrüfatı məhsullarının satışının dövlət tənzimlənməsi. Azərbaycan Elmi - Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2004, s. 143-156.

20. Kənd təsərrüfatı məhsullarının daşınmasının funksional dəyər təhlili. “Maliyyə və uçot” jurnalı. Bakı-2004, № 11, s. 18-24.

21. Aqromarketinq: mahiyyəti, formaları, daxili və xarici bazarların öyrənilməsinin təşkilati mexanizimdə rolu. Azərbaycan Koorperasiya Universiteti Beynəlxalq Konfrasının materialları. Bakı-2004, s. 705-707.

22. Kənd təsərrüfatı məhsullarının istehsalı və satışında birjalar və aqromarketinqin rolu. Bakı, “Elm”, 2004, s.148.

23. Məhsul istehsalı və satışının optimal strukturunun iqtisadi-riyazi modelləşdirilməsi.

Bakı, ”Elm”, 2004, s.116.

24. Kənd təsərrüfat məhsullarının satışının dövlət tənzimlənməsi. Bakı Dövlət Universitetinin elmi - praktiki konfransı. Bakı-2004, s. 119-121.

25. Модель выбора товаров потребителей в условиях товарно–денежных отнощений. “Труд и социальное отношения”. Москва-2004, № 3, с.19-24.

26. Kənd təsərrüfatı məhsullarının istehsalı və satışının vergi mexanizminin təkmilləşdirilməsi. Bakı Dövlət Universitetinin konfransı. Bakı-2004, s. 124-127.

27. Kənd təsərrüfatı məhsullarının istesal həcminin proqnozlaşdırılması. “Maliyyə və uçot” jurnalı. 2005, №2, s. 36-43.

28. Məhsulun istehsal həcminin çoxamilli reqressiya modeli. Bakı Dövlət Universitetinin elmi-praktiki konfransı. Bakı-2005, s.192-196.

29. Aqrar bazar infrastrukturu sistemində kənd təsərrüfatı birjalarının rolu. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. 4-cü hissə. Bakı-2005, s. 148-154.

30. Kənd təsərrüfatı məhsullarının istehsalı və satışında iqtisadi mexanizmlərin rolu və onun təkmilləşdirilməsi istiqamətləri. Azərbaycan Milli Elmlər Akademiyası, Gəncə Regional Elm Mərkəzi, “Xəbərlər məcmuəsi”, Gəncə-2005, № 15, s. 83-88.

31. Kənd təsərrüfatı məhsullarının daşınmasının optimal variantının seçilməsi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2005, (4), s.54-58.

32. Məhsul istehsalı üçün optimal sahənin seçilməsi və gəlirin müəyyənləşdirilməsi metodikası. Azərbaycan Elmi -Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2005, №3, s.202-207.

33. Aqrar bazar infrastrukturu sistemində birja və aqromarketinqin rolu. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2005, №2, s.120-125.

34. Aqromarketinq fəaliyyətinin təşkilinin texnoloji parametrləri və mərhələləri. Azərbaycan Milli Elmlər Akademiyası, Gəncə Regional Elm Mərkəzi, “Xəbərlər məcmuəsi”, Gəncə-2006, № 21, s.22-29.

35. Aqromarketinq fəaliyyətinin təşkilat mexanizmi və onun təkmilləşdirilməsi. Azərbaycan Milli Elmlər Akademiyası, Gəncə Regional Elm Mərkəzi, «Xəbərlər məcmuəsi», Gəncə-2006, № 22, s.78-87.
36. Методика разработки модели поведения потребителей для определения сферы потребления. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2006, №1, s.152-157.
37. Теоретические и методологические основы концепции технологии агромаркетинга. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2008, №2, s.25-29.
38. Культура и эффективность агромаркетинга. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2008, №3, s.45-50.
39. Технология эффективного агромаркетинга. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı-2009, №2, s.28-30.
40. Возможности проведение агромаркетинговых операций в аграрном секторе. Azərbaycan Milli Elmlər Akademiyası, Gəncə Regional Elm Mərkəzi, "Xəbərlər məcmuəsi", Gəncə-2009, № 35, s.83-87.
41. Особенности агромаркетинга и его становления в аграрном секторе Азербайджана. Azərbaycan Aqrar Elmi-2009, №1-2, s.15-16.
42. Консальтинг как форма агробизнеса. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri. Bakı, 2009 ,№3, s. 25-29.
43. Firma texniki servisinin səmərəliliyinin yüksəldilməsi yolları. Azərbaycan Aqrar Elmi-2009, №3-4, s.110-112.
44. Access to opportunities carrying out agromarketing operations in and AIC. The first International accessibility congress, Tehran, 2009, May.
45. Алгоритмизация процесса агромаркетинга. Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu: Sosial-iqtisadi problemlər mövzusunda konfrans. Bakı-2010,

s.137-139.
46. Агромаркетинг и консалтинг как форма решение социальных проблем предприятий АПК. Azərbaycan Respublikası Əmək və Sosial Müdafiəsi Nazirliyi və Sosial problər üzrə Elmi-Tədqiqat və Tədris mərkəzi Elmi əsərlər toplusu. Bakı-2010, № 1(6), s.107-113.
47. Aqromarketinqin idarə edilməsi sistemi. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri. Bakı-2011, № 31 , s.34-39.
48. Aqromarketinqin xüsusiyyətləri və onun Azərbaycanın aqrar sektorunda mövcudluğu. Azərbaycan Aqrar Elmi .- Bakı.2009, №1-2, s.22-24.
49. İstehsalat travmatizmin ehtimal təhlili. Azərbaycan Aqrar Elmi. Bakı-2009, №37, s.89-91.
50. İnsan resurslarının idarə edilməsi sistemi. Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi əsərləri. Bakı-2011, № 1, s.79-84.
51. The Organization in AIC Management: Up to date forms and Tendencies**.** Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri. Bakı-2011, №32.
52. Technologramming of Agromarketing process. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri. Bakı-2012, № 33, s.23-28.
53. Эффективность алгоритмизации процесса агромаркетинга. Azərbaycan Kooperasiya Universiteti və İqtisadçılar cəmiyyəti ilə birgə təşkil etdiyi Beynəlxalq konfrans. Bakı, s.347-350.
54. Social aspektcts of Agritourizm development. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri. Bakı-2013, № 36, s.105-108.
55. Kənd təsərrüfatı müəssisələrində əmək məhsuldarlığının səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri. Bakı-2012, № 33 , s.112-118.
56. Economics-social aspekts of aqritourism development. The scientific and pedagogical news of Odlar Yurdu University. Bakı-2013 № 35 , s.24-29.
57. Aqromarketinq konsepsiyasının nəzəri aspektləri. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri. . Bakı-2013 № 38, s.9-15.

58. Alqoritmzation of the use of techology in practice. The scientific and pedagogical news of Odlar Yurdu University. Bakı-2014, № 39, s.15-21.
59. The main directions of formation of tourism-recreation complex in Azerbaijan. Журнал "Экономика и предпринимательства". Москва, июль 2016, стр.959-963.
60. Azərbaycan Respublikasının istismarı şəraitində taxılyığan kombaynların istismar-etibarlılıq və iqtisadi göstəriciləri. Azərbaycan Aqrar Elmi, Bakı-2016, №4, s.16-19.
61. Основные направление развития агротуризма в Азербайджане. Чешский научный Журнал "Ekonomicke trendy". Пенза, 2017, №1.

**Вилаят Ибрагим оглы Исмайлов**

**Совершенствование организационно – экономических механизмов производства и реализации продукции в аграрном секторе**

## РЕЗЮМЕ

Диссертационная работа посвящена вопросам взаимосвязи организационно – экономических механизмов в оптимизации производства и реализации продукции в аграрном секторе Азербайджана.

Во введении диссертации обоснована актуальность, определены цели и задачи исследования, изложена его научная новизна, практическая значимость и апробация работы.

В первой главе диссертационной работы исследованы научно–теоретические и методологические основы производства и реализации сельскохозяйственной продукции. Раскрыты специфические свойства производства и реализации различных видов сельскохозяйственной продукции и определены экономические критерии реализации сельскохозяйственной продукции.

Во второй главе диссертации анализируется состояние производства сельскохозяйственной продукции в Азербайджане. Здесь также исследуются вопросы эффективности сельскохозяйственных предприятий.

В третьей главе диссертации рассматривается регрессивная модель объема роста агротуризма, а также определяется оптимальное расстояние между складами и центрами продажи сельскохозяйственных продуктов с применением теории графов. Здесь также раскрывается роль биржы в системе аграрно-рыночной инфраструктуры, обосновывается технологические параметры и этапы организации агромаркетинговой деятельности, рассматриваются оптимальные варианты перевозки сельскохозяйственной продукции к потребителям.

В четвертой гдаве диссертации рассматривается вопросы экономико - математического моделирования и оптимизации структур производства при реализации сельскохозяйственной продукции. Здесь также рассмотрены вопросы прогнозирования объема производства сельскохозяйственной продукции в аграрном секторе с применением многофакторной регрессивной модели. В пятой главе диссертации обоснована роль экономических механизмов в процессе производства сельскохозяйственных продуктов, указана роль налогового и таможенного механизма в экспорте и импорте сельскохозяйственной продукции.

В заключении диссертации даны конкретные предложения и выводы по совершенствованию методологических и методических подходов в решении задач оптимизации производства и реализации сельскохозяйственной продукции.

**Vilayat Ibrahim oglu Ismayilov**

# Improvment of orqanisat – economical mechanisms of output production and realization in the agrarian sector

## RESUME

The dissertation has been dedicated to the questions of intercommunications of inprovment of orqanisat – economical mechanisms of output production and realization in the agrarian sector in Azerbaijan.

The introduction is grounded on actuality, aims and purposes, scientific newness, approbations of work and its practical significance.

In the first chapter of the dissertation the theoretical and methodological bases of production and realization of agricultural output have been investigated. Discovered the specific characteristics of productions and realization of different kinds of agricultural output.

In the second chapter of the dissertation the position of agricultural output production in Azerbaijan is analyzed. The questions of efficiency criteria of the activity of agricultural enterprises are also investigated here.

In the third chapter of the dissertation it is given the reqressive model of volume of the growth of agrotourizm and also is defermined the optimal distance between ware house and central selling of agrecultural products with the application of Qraffs theory. The role of exchange in the system of agraromarket infrastructure is also discovered. Grounded the organization of technological parameters and stages of agromarketing activity. Considered the choice of optimum transportation variant of agricultural output to consumers and functional valuable analysis of transportation operations.

In the fourth chapter of the dissertation economic – mathematical modeling of optimization structures of agricultural output production and realization have been

considered. Investigated the questions of economic – mathematical modeling of optimum variant of agricultural output transportation.The problem of prognostication of the volume of agricultural output production in the agrarian sector with application of multifaceted regressive model has been considered. In the dissertation the questions of state regulation of purchasing capacity of agricultural output in the agrarian sector have been investigated, cited the role of economical mechanisms in the process of production and realization of agricultural output and shown the main directions of its regulation. The role of customs when exporting and importing of agricultural output has been shown.

In the conclusion the deduction and concrete suggestions on improvement of methodological and methodical approaches for solving problems on optimization of agricultural output productions and realization.

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАУЧНО – ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИКИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

---

На правах рукописи

**ИСМАЙЛОВ ВИЛАЯТ ИБРАГИМ ОГЛЫ**

# СОВЕРШЕНСТВОВАНИЕ ОРГАНИЗАЦИОННО – ЭКОНОМИЧЕСКИХ МЕХАНИЗМОВ ПРОИЗВОДСТВА И РЕАЛИЗАЦИИ ПРОДУКЦИИ В АГРАРНОМ СЕКТОРЕ

5312.01 – Экономика отрасли

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученной степени
доктора наук по экономике

БАКУ-2017